www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 27 may-2 iyun 2026-cı il Çərşənbə № 20 (8869) Qiymәti 1 manat

Xəbər

## Qəssabların dinə zidd "qurban əti" fırıldağı

yazısı səh.3-də

Ölkə

## İran və Rusiya "Xəzərin ağası" rolunda



Moskva və Tehran dənizi öz nəzarət zonasına çevirir - Bakı üçün təhlükə böyüyür...

yazısı səh.4-də

## Sabah Ermənistanın taleyi Astanada həll olunur

yazısı səh.8-də

## Ölkəmizin milyonlar qazanacağı liman bombalandı

yazısı səh.9-da

## Yarım milyardı keçən borc

yazısı səh.10-da

## Bakıya təklif edilən "İbrahim sazişləri" yenə masada

yazısı səh.9-da

## Deputatdan qadınlarla bağlı önəmli təklif

yazısı səh.10-da

## Brüssel Azərbaycana qarşı səhvini nə vaxt düzəldəcək?

yazısı səh.11-də

## Beş günlük bayram tətili başladı - DYP-dən xəbərdarlıq

yazısı səh.14-də

## Kiyevin bombalanması Kremlə qələbə gətirəcəkmi?

yazısı səh.11-də

## Hökumətdən hazırlıq: 100 mindən çox ev...

yazısı səh.15-də

## Separatçıların şikayəti üzrə məhkəmə başlayır

yazısı səh.2-də

# Rubìonun mübhəm səfərìnìn kodları

ABŞ dövlət katibinin gəlişi regionda həssas geosiyasi balansı daha da mürəkkəbləşdirə bilər - Ermənistandakı seçkilərə müdaxilə, yoxsa...



yazısı səh.6-da

# Keçmiş məmurların lənətlənmiş əmlakları

Onların mənzilləri və maşınları hərracda aylarla alıcı tapmır - səbəblər

yazısı səh.3-də



Aleksandr Bortnikov

## FTX rəhbərindən MDB ölkələrinə xəbərdarlığın pərdəarxası

yazısı səh.4-də



Məzahir Pənahov

## MSK seçici siyahılarını dəqiqləşdirdi - seçki dörd ildən tez ola bilər

yazısı səh.5-də



## Kubanın "Xamenei"si- Raul Kastronun həyat hekayəsi

yazısı səh.7-də

# Azərbaycandakı yeni ingilis səfir kimdir?


Duncan Norman

**Böyük Britaniyanın Azərbaycana təyin olunan yeni səfiri Duncan Norman ölkəyə gəlib. Bu barədə səfir X hesabında paylaşım edib.**

"Azərbaycana Böyük Britaniyanın yeni təyin olunmuş səfiri kimi gəlmək çox qürurverici bir hissdir. Sizlərlə tanış olub, birlikdə çalışmağı səbirsizliklə gözləyirəm", - deyə o qeyd edib.

Dunkan Çarlz Norman əmək fəaliyyətinə 1990-cı ildə Böyük Britaniyanın Xarici İşlər və Birlik Ofisində (FCO) başlayıb. Maliyyə Departamenti və Birgə Yardım Bölməsində çalışan Dunkan Norman daha sonra diplomatik fəaliyyətini bir sıra xarici ölkələrdə davam etdirib: Ər-Riyadda vitse-konsul, İrəvanda Missiya rəhbərinin müavini olub. O, 2016-2021-ci illərdə Böyük Britaniyanın Albaniyadakı səfiri olub. 2022-2023-ü illərdə Böyük Britaniyanın Xarici İşlər, Birlik və İnkişaf Ofisində (FCDO) Ukraynanın Bərpası üzrə Konfrans Bölməsinin direktor müavini kimi çalışıb.

D.Norman 2023-2024-cü illərdə Böyük Britaniyanın Milli Təhlükəsizlik Katibliyində (National Security Secretariat) Birgə Fondlar Bölməsinin direktor müavini işləyib. (red: Milli Təhlükəsizlik Katibliyi (National Security Secretariat) Böyük Britaniya hökumətində milli təhlükəsizlik, müdafiə, kəşfiyyat və xarici təhlükəsizlik siyasətinin koordinasiyasını həyata keçirən qurumdur. Birgə Fondlar Bölməsi isə (Joint Funds Unit) müxtəlif beynəlxalq və hökumətlərarası təhlükəsizlik, inkişaf və strateji maliyyə fondlarının idarə olunması və bölüşdürülməsi ilə məşğul olan struktur-dur).

Qeyd edək ki, Dunkan Normanın təyinatı ilə rəsmi Londonun Bakı ilə diplomatik münasibətlərinin və iki ölkə arasında əməkdaşlığın yeni mərhələyə keçəcəyi gözlənilir.



## Parlamentin növbədənkənar sessiyası çağırılacaq

**Milli Məclisin yaz sessiyası başa çatıb. Yaz sessiyasına parlamentin mayın 26-da keçirilən iclası ilə yekun vurulub. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclas Dövlət himninin səslən-dirilməsi ilə başa çatıb.**

Qeyd edək ki, Milli Məclisin növbədənkənar sessiyası çağırılacaq. Bununla bağlı Milli Məclisin deputatları parlamentin sədrinə müraciət ünvanlayıblar. Növbədənkənar sessiyasının iclasları iyul ayının 15-dək keçirilə bilər. Daha sonra deputatlar məzuniyyətə çıxır.

Onu da bildirək ki, Milli Məclisin Daxili Nizamnaməsinə görə, Milli Məclisin sədri növbədənkənar sessiyanı prezidentin və ya Milli Məclisin 42 deputatının tələbi əsasında çağırır.

## Bayram günü güclü külək əsəcək

**Mayın 27-də bölgələrdə gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıq verilib. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Mingəçevir, Şəki, Zaqatala, Qax, Balakən, Bərdə, Göyçay, Oğuz, Qəbələ, İsmayıllı, Tərtər, Yevlax, Naftalan, Goranboy, Daşkəsəndə narıncı xəbərdarlığa uyğun olaraq şimal-qərb küləyi əsəcək, küləyin sürəti 20.8-28.4 m/san-dək güclənəcək.**

Ölkənin digər bölgələrində isə sarı xəbərdarlığa uyğun olaraq şimal-qərb küləyi əsəcək, küləyin sürəti 13.9-20.7 m/san təşkil edəcək.

## Məktəblərdə suçiçəyi xəstəliyi yayılır

**Son dövrlərdə uşaqlar arasında suçiçəyi xəstəliyinin artması cəmiyyətdə, xüsusilə valideynlər və təhsil müəssisələri arasında ciddi narahatlıq yaradıb.**

İctimai TV xəbər verir ki, yoluxuculuq səviyyəsinin yüksək olması səbəbindən xəstəlik qısa zaman ərzində bağça və məktəb kollektivlərində sürətlə yayılır, bu isə həm uşaqların sağlamlığı, həm də tədris prosesinin gedişinə təsirsiz ötüşmür.

Bu vəziyyət valideynləri övladlarının sağlamlığı ilə bağlı daha diqqətli olmağa vadar edir, eyni zamanda təhsil müəssisələrində profilaktik tədbirlərin gücləndirilməsi zərurətini gündəmə gətirir.

Xəstəliyin ilkin əlamətlərinin vaxtında tanınmaması və ya uşaqların tam sağalmadan kollektivə qaytarılması yoluxma riskini daha da artırır. Nəticədə suçiçəyi təkcə fərdi sağlamlıq problemi deyil, kütləvi xarakter alan ictimai məsələ kimi qiymətləndirilir.



## Saşa İliç "Sumqayıt"dan getdi

**"Sumqayıt FK" baş məşqçi Saşa İliçlə yollarını ayırıb.**

Klubdan verilən məlumata görə, serbiyalı mütəxəssisin komanda ilə olan müqavilə müddəti başa çatıb və tərəflər əməkdaşlığı davam etdirməmək qərarı veriblər.

"Sumqayıt" Futbol Klubu bununla bağlı rəsmi paylaşım edərək məşqçiyə göstərdiyi xidmətlərə görə təşəkkürünü bildirib. Klubun açıqlamasında Saşa İliçə gələcək məşqçilik karyerasında uğurlar arzulanıb.

Qeyd edək ki, serbiyalı çalışdırıcı rəhbərlik etdiyi müddətdə komandanın uğurlu çıxışı üçün fəaliyyət göstərib. Onun komandadan ayrılması futbol ictimaiyyətində müzakirələrə səbəb olub.

## TƏBİB-də yeni direktor təyinatları

**Sabunçu Tibb Mərkəzinin direktoru vəzifəsinə Paşayev Cavid Nazim oğlu təyin edilib.**

Bu barədə TƏBİB-dən məlumat verilib.

O, hazırkı təyinata qədər "Elit-Central" Hospitalın baş həkimi vəzifəsində çalışıb.

Həmçinin Beyləqan Rayon Mərkəzi Xəstəxanasının direktoru vəzifəsinə Nəsirova Leylan Məhəmmədəli qızı təyin edilib. O, 2022-ci ildə Beyləqan Rayon Mərkəzi Xəstəxanasının direktor müavini və baş həkimi vəzifələrində çalışıb. 2022-ci ildən hazırkı təyinatına qədər Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 19 saylı Tibbi-Sosial Ekspert Komissiyasının sədri olub.

## Separatçıların şikayəti üzrə məhkəmə başlayır



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Araik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərləri barələrində olan məhkəmə hökmündən verdikləri apelyasiya şikayəti üzrə iş icraata götürülüb.**

İşə Bakı Apelyasiya Məhkəməsində hakim Elmar Rəhimovun sədrliyi ilə baxılacaq.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin qərarına (hökm) əsasən, Harutyunyan Araik Vladimiri (Vladimiroviç), Mnatsakanyan Levon Henrixi, Manukyan David Azati, İşxanyan Davit Rubeni və Babayan David Klimi ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç) və Sahakyan Bako Sahaki 20 il, Babayan Madat Arakeli və Paşayan Melikset Vladimiri 19 il, Martirosyan Qarik Qriqori 18 il, Allahverdiyan Davit Nelsoni və Balayan Levon Romiki 16 il, Beqlaryan Vasili İvani, Stepanyan Qurgen Homerosi və Qazaryan Erik Roberti 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.



## Azərbaycanda 7 dövlət qurumu ləğv olundu

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə (AAYDA) məxsus daha bir neçə şirkət ləğv edilib.**

İqtisadiyyat.az xəbər verir ki, bununla bağlı müvafiq qərar qəbul olunub.

Qərara əsasən, "2 nömrəli Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv edilib. Bundan əlavə, 4, 5, 6, 7, 8, 9 və 10 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması məhdud məsuliyyətli cəmiyyətləri də ləğv olunduqlarını elan edib.

Xatırladaq ki, daha əvvəl 1, 2 və 3 nömrəli Avtomobil Yollarının Yaşıllaşdırılması Məhdud Məsuliyyətli cəmiyyətləri və "1 nömrəli Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası" MMC də ləğv olunduğunu elan edib.



## Ermənistan Hindistandan hansı yeni silahlar alır?

**Ermənistan Hindistandan yeni silahlar, o cümlədən "Akash-NG" Hava Hücumundan Müdafiə (HHM) sistemləri, "Pralay" raketləri almağı və "Su-30SM" qırıcılarını modernləşdirməyi planlaşdırır.**

Bu addım Ermənistanın Rusiya silahlarından asılılığını azaltmaqla yanaşı, öz hərbi potensialını gücləndirməyə yönəlib.

"Akash-NG" sistemi uzaq menzilli qabaqcıl hava hücumundan müdafiəni, "Pralay" raketləri isə yüksək dəqiqlikli zərbə imkanlarını təmin edə bilər. Hindistan həmçinin Ermənistanın "Su-30SM" qırıcı parkını "Ut-tam" aktiv fazalı barmaqlı antena (AESA) radarları, "Astra" raketləri və qabaqcıl zərbə sistemləri ilə təkmilləşdirməyi nəzərdə tutur.

Hindistanla Ermənistan arasında genişlənən müdafiə əməkdaşlığı Cənubi Qafqazda 2020-ci ildə 44 günlük müharibədən sonra yaranmış güc balansını dəyişməyə yönəlmiş addım kimi qiymətləndirilir.

# Keçmiş məmurların lənətlənmiş əmlakları

## Onların mənzilləri və maşınları hərracda aylarla alıcı tapmır - səbəblər



**Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun üzərinə həbs qoyulmuş mənzillərindən biri yenidən hərraca çıxarılır.**

Mənzil İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən iyunun 16-da keçiriləcək hərracda satışa təqdim olunacaq.

Hərrac elanına əsasən, söhbət Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsi, 422-ci məhəllə, ev 53, mənzil 108 ünvanında yerləşən daşınmaz əmlakdan gedir.

Sahəsi 370.4 kvadratmetr olan mənzilin start qiyməti 694 687.5 manat, beh məbləği isə 69 468.8 manat müəyyən edilib.

Elanda qeyd olunur ki, mənzil alıcı tapılmadığı üçün 4-cü dəfə 25 faiz endirimli qiymətlə təkrar hərraca çıxarılır.

Qeyd edək ki, Səlim Müslümovun cinayət işi üzrə üzərinə həbs qoyulmuş əmlaklar arasında Bakı şəhərinin müxtəlif rayonlarında yerləşən mənzillər, qeyri-yaşayış sahələri və torpaq sahələri də var. Məhkəmə prosesində açıqlanan siyahıda Yasamal rayonundakı bu mənzil də yer almışdı.

Qeyd edək ki, İmişli Rayon İcra Hakimiyyətinin korrupsiya cinayətləri ilə bağlı məhkum edilmiş keçmiş başçısı Vilyam Hacıyevin cinayət işi üzrə müsadirə edilmiş avtomobillərinin də qiyməti xeyli ucuzlaşıb.

"Range Rover" və "BMW 740İ" avtomobilləri üç dəfə satışa çıxarılsa da, onlara alıcı tapılmayıb.

İcra məmuru əmlakı 25% endirimlə dördüncü dəfə hərraca çıxaracaq. Belə ki, əvvəl 56 min manata təklif edilən "Range Rover"in qiyməti 14 min manat ucuzlaşaraq 42 min manata, 23 min manata təklif edilən BMW isə 5 750 manat aşağı - 17 250 manata çıxarılacaq.

V.Hacıyevin cinayəti ilə bağlı müsadirə edilmiş avtomobillərdən yalnız birinə - "Bentley Continental GT"yə alıcı tapılıb. 65 min manata təklif edilən "Bentley" üçüncü hərracda 6 500 manat endirimlə - 58 500 manata satılıb.

Qeyd edək ki, "Range Rover"i (həmin vaxt qiyməti 100 min manatdan çox olub - red.) Vilyam Hacıyevin oğlu Məhəmməd Hacıyev, BMW-ni isə həyat yoldaşı Cülyetta İbrahimova sürüblər.

Keçmiş məmurlara məxsus olub müsadirə edilərək hərraca çıxarılan əmlaklara marağın aşağı olmasını ekspertlər bir neçə əsas səbəblə bağlı olduğunu bildirirlər.

Əsas amillərdən biri hüquqi qeyri-müəyyənlikdir. Potensial alıcılar gələcəkdə mülkiyyətlə bağlı məhkəmə çəkişmələrinin yarana biləcəyindən ehtiyat edirlər. Bundan əlavə, bu tip əmlakların korrupsiya və qalmaqallarla əlaqələndirilməsi onların reputasiya baxımından riskli hesab olunmasına səbəb olur.

Digər tərəfdən, hərraclarda müəyyən edilən ilkin qiymətlərin bəzən real bazar dəyərindən yüksək olması da alıcı marağını azaldır. Eyni zamanda obyektlərlə bağlı mümkün borc və öhdəliklərin mövcudluğu da riskləri artırır.

Müşahidələrə görə, bəzi alıcılar qiymətlərin gələcək mərhələlərdə daha da ucuzlaşacağını gözləyərək hərraclarda iştirakdan çəkinir. Nəhayət, "haram pulla alınıb" deyib bu cür hərraclarda iştirak etməyənlər də az deyil.

Tanınmış **vəkil Cavad Cavadov** "Yeni Müsavat"a deyib ki, Azərbaycanda hərrac institutu inkişaf etməyib: "Sabiq məmurların müsadirə edilmiş və dəfələrlə hərraca çıxarılsa da, satılmayan əmlakları icra və hərrac mexanizmlərinin ciddi şəkildə təftiş olunmasını tələb edən bir tendensiyadır. Bu, sadəcə, iki məmurun əmlakının satılmaması davası deyil, dövlətin müsadirə institutunun effektivliyi məsələsidir.

Hüququn ən əsas prinsiplərindən biri xoşniyyətli alıcı anlayışıdır. İnsanlar dövlətin rəsmi orqanının - Əmlak Məsələləri Dövlət Xidmətinin təşkil etdiyi hərraca etibar edib əmlak alırlar. Lakin yerli hüquq praktikasında sonradan elə qüsurlar üzə çıxır ki, həmin xoşniyyətli alıcı ortada qalır.

Məsələn, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) Azərbaycan və digər post-sovet ölkələrinə qarşı mülkiyyət hüququ ilə bağlı (AİHM Konvensiyasının 1 nömrəli Protokolunun 1-ci maddəsi) qərarlarının böyük bir qismi dövlət orqanlarının xətası ucbatından zərər çəkmiş xoşniyyətli alıcıların müdafiəsinə yönəlib. Məhkəmə açıq şəkildə qeyd edir ki, dövlət orqanının buraxdığı prosedur səhvinin bədəlini vətəndaş öz mülkiyyəti ilə ödəməməlidir. Bizim potensial alıcılarımız isə savadlıdırlar; onlar bilirlər ki, bu gün cinayət işi çərçivəsində müsadirə edilən əmlakın müsadirə qərarı 5-10 il sonra yeni açılmış hallar üzrə ləğv edilə bilər. Bu isə o deməkdir ki, hərracdan alınan mənzil keçmiş sahibinə və ya vərəsələrinə qaytarıla bilər və alıcı vurduğu maddi ziyanı dövlətdən geri almaq üçün illərlə növbəti məhkəmə qapılarında qalacaq".

**Cavad Cavadov deyib ki, Vilyam Hacıyevin cinayət işində maraqlı bir detal var**: "Avtomobillərdən birini oğlu, digərini həyat yoldaşı sürüb. Bu əmlaklar üzərində mülki qanunvericilik baxımından birgə mülkiyyət hüququ varmı? Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, nikah dövründə qazanılmış əmlak ər-arvadın müştərək mülkiyyətidir. Əgər həmin avtomobillər və ya Səlim Müslümovun mənzili rəsmi nikah dövründə alınıbsa, cinayət törətməkdə təqsirləndirilməyən həyat yoldaşının o əmlakda 50%-lik pay hüququ qanunla qorunur. İcra məmurları bəzən bu incəliyi ötürərək əmlakı bütöv halda hərraca çıxarırlar. Sabah həmin həyat yoldaşı məhkəmədə iddia qaldıraraq, "mənim cinayətdən xəbərim olmayıb, bu əmlakda mənim qanuni payım var idi və hərrac hüququmu pozub" dediyi anda, hərracın nəticələri etibarsız sayıla bilər. Alıcılar bu risk bombası üzərində oturmaq istəmirlər".

**Cavad Cavadov deyib ki, hərrac elanında görünür ki, Səlim Müslümovun 370.4 kv.m-lik mənzili təxminən 700 min manat start qiyməti ilə satışa çıxarılıb və alıcı tapılmadığı üçün artıq 25 faiz endirim edilib:** "Bu nəyi göstərir? İstintaq və məhkəmə mərhələsində qiymətləndirməni aparan ekspertlər çox vaxt daşınmaz əmlak bazarının real nəbzini tuta bilmirlər. Onlar qiyməti mexaniki olaraq, bəzən isə subyektiv mülahizələrlə yuxarı təyin edirlər. Hüquqi dövlətdə qiymətləndirmə tam müstəqil, lisenziyalı auditorlar və qiymətləndiricilər tərəfindən, əmlakın yerləşdiyi yerin likvidliyi və onun mənfi reputasiyası nəzərə alınmaqla aparılmalıdır. İndiki mexanizmdə isə qanunvericilik ancaq 4-cü dəfə təkrar hərracda endirimə icazə verir ki, bu da prosesi həm uzadır, həm də dövlətin büdcəsinə gələcək vəsaitin daxil olmasını ləngidir".

**Cavad Cavadov deyib ki, Azərbaycan cəmiyyətində mövcud olan "haram pul", "lənətlənmiş mülk" yanaşması, sadəcə, dini-mənəvi deyil, həm də sosioloji bir hüquq faktorudur:** "Hüquq sosiologiyası sübut edir ki, cəmiyyətin qeyri-rəsmi institutları - adət-ənənələr, ictimai qınaq bəzən rəsmi qanunlardan daha güclü işləyir. Böyük investorlar, daxili bazarda nüfuzunu qoruyan tikinti və ya investisiya şirkətləri səs-küylü korrupsiya cinayətlərinin obyekti olmuş əmlakları almaqla öz brendlərini riskə atmırlar. Onlar bilirlər ki, bu əmlakların media tərəfindən "lənətlənmiş əmlak" kimi tirajlanması gələcəkdə həmin obyektdən kommersiya məqsədilə istifadəni çətinləşdirəcək. Məsələn, heç bir şirkət Səlim Müslümovun müsadirə olunmuş evində özünə ofis açıb neqativ gündəmlə assosiasiya olunmaq istəməz. Hazırkı vəziyyətdən çıxış yolu qanunvericilik islahatından keçir. İcra haqqında qanunvericiliyə xüsusi bir müddəa əlavə edilməlidir: "Dövlət tərəfindən hərrac vasitəsilə satılan müsadirə olunmuş əmlakların mülkiyyət hüququ mütləqdir, geriyə qüvvəsi yoxdur və gələcəkdə yarana biləcək bütün mülki iddialar üzrə maddi məsuliyyəti birbaşa dövlət xəzinəsi daşıyır". Yalnız belə bir sarsılmaz hüquqi qarant mühiti yaradıldıqdan sonra, alıcı əmlakın keçmiş sahibinin kimliyindən qorxmayaraq hərracda sərbəst iştirak edə bilər. Əks təqdirdə, qiymətləri daha 50 faiz də aşağı salsanız, bu aktivlər dövlətin balansında ölü yük olaraq qalmağa davam edəcək".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Qəssabların dinə zidd "qurban əti" fırıldağı

## Borcla qurbanlıq almaq düzgündürmü?

**Son illər Azərbaycanda Qurban bayramı ərəfəsində bəzi məhəllə qəssablarının tətbiq etdiyi "paylı ət satışı" üsulu müzakirələrə səbəb olub. Belə ki, ayrı-ayrı satıcılar bir heyvanın kəsilərək ətinin hissə-hissə, məsələn, 2 kiloqramlıq paylarla satılmasını "qurbana pay sahibi olmaq" kimi təqdim edirlər.**

Bu yanaşma sosial şəbəkələrdə tənqid edilir, bir sıra ilahiyyatçılar bu cür halların qurban ibadətinin mahiyyətinə uyğun olmadığını bildirirlər.

Mövzu ilə bağlı Bakupost.az -a danışan **ilahiyyatçı Tural İrfan** bildirib ki, bu praktika yanlışdır və daha çox kommersiya məqsədi daşıyır. Onun sözlərinə görə, bunu əsasən öz ət məhsullarını satmaq istəyən işbazlar həyata keçirir: "İnsanlar isə kifayət qədər məlumatlı olmadıqları üçün bunu məqbul hesab edərək gedib "qurban əti" alırlar. Ramazan bayramı ərəfəsində də iftar süfrələrini pulla satırdılar, bu da doğru deyil. Ümumiyyətlə, İslam dininə görə, iri buynuzlu heyvanları 7 nəfərə qədər şəxs özləri alıb şərikli şəkildə kəsə və sonra da razılıqla bölə bilərlər. Məsələn, inək və dəvə kimi heyvanları. Çünki bunlar böyük heyvanlardır, ətləri çox olur. Bu mümkündür. Ancaq xırda - qoyun və keçi kimi heyvanların bir neçə adam tərəfindən şərikli alınıb bölünməsi qətiyyən mümkün deyil. Xüsusilə bunu qəssab yox, insanların özləri könüllü şəkildə həyata keçirməlidir. Çünki bu, qurbandır. Qurbanın ibadət olaraq öz şərtləri və qaydaları var. Ümumiyyətlə, bəziləri deyir ki, qurban kəsməyə imkanım yoxdur, onda mən nə edim? Onlar adi şəkildə bazardan ət alıb bişirə bilərlər, amma qəssabın kəsdiyi və "qurban əti" adı ilə satılan əti almağın özü də günahdır. Çünki bu, ibadətə yenilik gətirmək, İslam dinini təhrif etmək və ənənəvi bayramın mahiyyətini pozmaq deməkdir. Bu işdə həm satan, həm də alan şəxslər günahkardır".

Yeri gəlmişkən, hər Qurban bayramında bir çoxlarını yenə ənənəvi sual düşündürür: borcla heyvan almaq olar, yaxud maddi imkan yoxdursa, nə etməli?

"Qurban ibadətinin kimlərə vacib olması məsələsinə İslam hüququ baxımından yanaşdıqda, bu ibadət əsas etibarilə maddi imkana malik olan müsəlmanlara aiddir".

**"Yeni Sabah"a ilahiyyatçı Ağa Hacıbəyli bildirib:** "Həcc ziyarəti zamanı Minada yerinə yetirilən qurban ibadəti həmin ibadətin bir hissəsi kimi qəbul olunur və bu, yalnız Həcc əməlini icra edən zəvvarlara şamil edilir. Həccə getmək imkanı olmayan şəxslər isə yaşadıqları ölkələrdə, şəhər və kəndlərdə imkanları daxilində qurban ibadətini yerinə yetirirlər.

İlahiyyat qaydalarına görə, qurban kəsmək borcu olmayan, zəruri ehtiyaclarını qarşılayıb nisab miqdarında mala sahib olan müsəlmanlara vacib və ya güclü sünnə sayılır. Borclu şəxslər isə ilk növbədə mövcud borclarını ödəməli, bundan sonra imkanları qalarsa qurban ibadətini yerinə yetirməlidirlər.

Eyni zamanda qısa müddət ərzində maliyyə vəsaitinin əldə olunacağı dəqiq bilinən hallar istisna olmaqla, borc götürərək qurban kəsmək şəri baxımdan tövsiyə edilmir. Çünki qurban ibadəti yalnız real maddi imkan daxilində icra olunan bir ibadətdir. Ümumilikdə qurbanın mahiyyəti yalnız ibadət deyil, həm də sosial məsuliyyət və həmrəylik prinsipinə əsaslanır. Kəsilən qurban ətinin ehtiyac sahibləri ilə paylaşılması İslamın sosial ədalət anlayışının mühüm tərkib hissəsi kimi dəyərləndirilir".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026



# İran və Rusiya "Xəzərin ağası" rolunda

## Moskva və Tehran dənizi öz nəzarət zonasına çevirir-Bakı üçün təhlükə böyüyür...

**Qərb mənbələrindən əldə edilən məlumata görə, Rusiya Xəzər dənizindəki dörd İran limanını hərbi arsenalla yanaşı ərzaq daşımaları üçün gecə-gündüz işləyir. Beləliklə, Xəzər dənizinin bir növ İranı düşdüyü geosiyasi kollapsdan qurtarmaq üçün "tranzit zona"ya çevrilməsi ABŞ və bütövlükdə Qərb üçün problemə çevrilib. Bu fonda Xəzər dənizinin mümkün hərbsizləşdirilməsi və regionun iqtisadi əməkdaşlıq sahəsindən tədricən geosiyasi rəqabət meydanına çevrilməsi ilə bağlı suallar getdikcə daha çox ortaya çıxır. Üstəlik, İran və Rusiya özünü sanki "Xəzərin ağası" rolunda görür.**

Bu kontekstdə, 20 ildən çox davam edən danışıqlardan sonra 2018-ci ilin avqust ayında imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya xüsusi əhəmiyyət kəsb edir. Sənəddə Xəzər dənizinin daxili dəniz kimi xüsusi statusu təsbit edilib, dəniz dibinin sektorlara bölünməsi, sularından birgə istifadə, regiondankənar silahlı qüvvələrin mövcudluğuna qadağa qoyulmuş və transxəzər infrastrukturunun həyata keçirilməsi üçün bütün beş sahilyanı dövlətin razılığının zəruriliyi müəyyən edilib. Konvensiyanın tez-tez "Xəzərin konstitusiyası" adlandırılması təsadüfi deyil. Lakin 2018-ci ildən bəri qlobal geosiyasi vəziyyət o qədər əhəmiyyətli dərəcədə dəyişib ki, sənədin müəyyən müddəalarının yenidən nəzərdən keçirilməsi zərurəti yaranıb. Bu barədə Minval.az-ın təhlilində deyilir.

Lakin bütün Xəzəryanı dövlətlər mövcud qaydalardakı dəyişiklikləri dəstəkləməyə hazır deyillər. Bu, öz növbəsində Xəzər "konstitusiyası"nın tərəfləri arasında gərginliyi artıra bilər. Yeri gəlmişkən, İran konvensiyanı imzalasa da, hələ də onu ratifikasiya etməyib. Bu arada Xəzərin konvensiya tərəfindən tam qorunacağına dair hələ də tam zəmanət yoxdur: bu, təkcə Yaxın Şərqdə gərginliyin daha da artması potensialı ilə deyil, həm də yuxarıda sadalanan səbəblərə görə xarici qüvvələr tərəfindən hədəf alınan dənizin yeni geosiyasi statusu ilə əlaqədardır.

**Siyasi təhlilçi Sona Əliyeva** "Yeni Müsavat"a dedi ki, Xəzər İranın beynəlxalq təcridinə qarşı "arxa qapı"ya çevrilib: "Qərb bunu görür, lakin əlindəki alətlər Xəzər üzərindən işləmir. Moskvaya bu sxem müttəfiqini ayaqda saxlamaq üçün lazımdır. Tehrana isə alternativsizdir. Üstəlik, hər ikisi bu hövzədə qaydaları özünün müəyyən etməsini istəyir. Sanki Xəzər beş sahilyanı dövlətin ortaq məsuliyyət sahəsi deyil, Moskva ilə Tehranın nəzarət zonasıdır. 2018-ci ildə imzalanan Xəzər Konvensiyası bu risklərin qarşısını almaq üçün əhəmiyyətli bir sənəd idi. Regiondankənar hərbi qüvvələrə qadağa, infrastruktur layihələrində beştərəfli razılıq zərurəti, Xəzərin özəl hüquqi statusu, bütün bunlar o dövr üçün ciddi nailiyyət sayılırdı.

Lakin sənədin siyasi çəkisi onun hüquqi icrasından böyük çıxdı. İran konvensiyanı imzaladı, amma ratifikasiya etmədi. Bunu texniki gecikmə kimi oxumaq olmaz. Tehran lazım gələndə konvensiyanın prinsiplərinə istinad edir, lazım gələndə isə tam öhdəlikdən yayınır. Bu, klassik strateji qeyri-müəyyənlik mövqeyidir. Lazım olanda, konvensiyadan sığorta kimi yararlanmaq, lakin onun tələblərini yerinə yetirməmək kimi bir yanaşma sərgiləyir. Əvvəllər Xəzər enerji, nəqliyyat, balıqçılıq mübahisələri ilə gündəmə gəlirdi. İndi bu hövzə sanksiyalardan yayınma marşrutu, hərbi-logistik arxa xətt kimi önə çıxır. Dəyişən yalnız mövzu deyil, Xəzərin geosiyasi ağırlığının özüdür. Xəzərin hərbiləşməsi Azərbaycana abstrakt təhlükə kimi görünə bilər. Bakının enerji ixracı, nəqliyyat dəhlizləri, milli təhlükəsizlik maraqları bu prosesə birbaşa bağlıdır. Rusiya və İranın dominantlıq iddiası gücləndikcə, Azərbaycanın manevr sahəsi daralır. Buna görə də rəsmi Bakının burada balanslı, eyni zamanda prinsipial mövqe saxlaması, həmçinin konvensiyanın ruhunu müdafiə etmək, real icrasını tələb etmək, artıq siyasi seçim deyil, strateji zərurətdir".

**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli qeyd etdi ki, Xəzər dənizi uzun illər daha çox enerji ehtiyatları, nəqliyyat imkanları və regional əməkdaşlıq məkanı kimi qiymətləndirilib:** "Lakin son geosiyasi proseslər onun strateji əhəmiyyətini tamamilə yeni mərhələyə çıxarıb. Xüsusilə, Rusiya ilə İran arasında hərbi sahədə əlaqələrin dərinləşməsi Xəzərin təhlükəsizlik arxitekturasını dəyişdirən əsas amillərdən birinə çevrilməkdədir. İndi Xəzər dənizində təkcə iqtisadi maraqlar uğrunda rəqabət getmir, həm də geosiyasi nüfuz uğrunda mübarizə gedir.

Qərb mənbələrinin yaydığı məlumatlara görə, Rusiya Xəzər üzərindən İran limanlarına hərbi arsenal və ərzaq daşımalarını intensivləşdirib. Bu isə onun yeni statusunu açıq şəkildə nümayiş etdirir. Belə görünür ki, rəsmi Moskva Xəzəri özünün strateji logistika xəttinə çevirməyə çalışır. İran isə Qərbin sanksiyaları və Yaxın Şərqdə artan problemlər fonunda bu marşrut vasitəsilə "nəfəs" alır. Nəticədə Xəzər dənizi tədricən regional əməkdaşlıq platformasından qlobal rəqabət zonasına çevrilir".

**Partiya sədri hesab edir ki, bütün bunların fonunda 2018-ci ildə imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın aktuallığı daha da artır:** "Sənəd Xəzərin hüquqi çərçivəsini müəyyənləşdirməklə yanaşı, regiondankənar hərbi qüvvələrin burada yerləşdirilməsinə qadağa qoymuşdu. Həmin dövrdə bu, sahilyanı dövlətlər arasında balansı qorumağa xidmət edən kompromis kimi qiymətləndirilirdi. Lakin son illərdə beynəlxalq münasibətlər sistemində baş verən ciddi dəyişikliklər konvensiyanın bəzi müddəalarının yenidən müzakirəsini gündəmə gətirib.

Əsas problem ondadır ki, Xəzərdə təhlükəsizlik balansı tədricən Rusiya və İranın təsiri altına düşə bilər. Bu isə digər sahilyanı ölkələrdə narahatlıq yaradır. Azərbaycan, Qazaxıstan və Türkmənistan üçün Xəzər yalnız təhlükəsizlik məsələsi deyil, həm də enerji ixracı və beynəlxalq tranzit layihələrinin əsas hissəsidir. Xüsusilə Orta dəhliz və Transxəzər layihələri fonunda bölgənin sabitliyi böyük əhəmiyyət daşıyır. Əgər Xəzər geosiyasi qarşıdurma meydanına çevrilərsə, bu layihələrin gələcəyi də risk altına düşəcək.

Digər tərəfdən, İranın konvensiyanı hələ də ratifikasiya etməməsi hüquqi qeyri-müəyyənliyi artırır. Bu amil gələcəkdə müxtəlif siyasi manipulyasiyalar üçün zəmin yarada bilər. Üstəlik, Yaxın Şərqdə gərginliyin artması və Qərblə Rusiya arasında davam edən qarşıdurma Xəzərin strateji əhəmiyyətini daha da artırır".

**Ekspertə görə, bütün bunlar göstərir ki, Xəzər artıq yalnız coğrafi məkan deyil, böyük güclərin maraqlarının toqquşduğu həssas geosiyasi platformaya çevrilməkdədir:** "Bu şəraitdə region dövlətləri balanslı siyasət yürütməli, Xəzərin hərbiləşməsinin qarşısını almaq üçün çoxtərəfli əməkdaşlıq mexanizmlərini gücləndirməlidir. Əks halda, Xəzər dənizi yaxın gələcəkdə yeni geosiyasi böhran ocaqlarından birinə çevrilə bilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# FTX rəhbərindən MDB ölkələrinə xəbərdarlıq

## Bortnikov: "Avropa Birliyinin kəşfiyyat orqanları postsovet ölkələrində fəallıqlarını artırırlar"



Aleksandr Bortnikov

**"MDB ölkələrinə qarşı təhdidlər bir neçə istiqamətdə, o cümlədən beynəlxalq terrorizm, Yaxın Şərqdəki qeyri-sabitlik və xarici kəşfiyyat orqanlarının fəaliyyəti ilə artır". Musavat.com "İzvestiya" nəşrinə istinadən xəbər verir ki, Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) rəhbəri Aleksandr Bortnikov belə deyib. Qeyd edək ki, mayın 26-da İrkutskda MDB Təhlükəsizlik Orqanları və Kəşfiyyat Xidmətləri Rəhbərləri Şurasının (CHIS) 58-ci iclası keçirilib. Bortnikov da həmin xəbərdarlığı toplantıdakı çıxışında edib.**

FTX rəisi Rusiyada qadağan olunmuş İŞİD terror təşkilatı olan "Vilayət Xorasan"ın fəaliyyətinə xüsusi diqqət yetirib. Onun sözlərinə görə, bu təşkilat miqrant işçilər arasında fəal şəkildə tərəfdarlar cəlb edir. Bortnikov bildirib ki, Rusiya kəşfiyyat orqanları tacik həmkarları ilə birlikdə yüksək səviyyəli hücumlar planlaşdıran terrorçu dəstəni zərərsizləşdiriblər. Bundan əlavə, Özbəkistan hüquq-mühafizə orqanları ilə əlaqələndirilərək, Moskva da daxil olmaqla, Rusiya ərazisində beş terror aktının qarşısı alınıb.

O, həmçinin terrorizm və narkotik qaçaqmalçılığına qarşı mübarizədə Əfqanıstan hakimiyyəti ilə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, Avropa Birliyinin kəşfiyyat orqanları postsovet ölkələrində iştiraklarını artırırlar.

Aleksandr Bortnikov tərəfindən səsləndirilən fikirlər MDB məkanında təhlükəsizlik gündəliyinin nə qədər mürəkkəbləşdiyini göstərsə də, bu açıqlamaya təkcə təhlükəsizlik prizmasından yanaşmaq kifayət deyil. Burada həm real risklər, həm də siyasi mesajlar iç-içədir.

İŞİD - "Vilayət Xorasan" kimi qruplaşmaların fəallaşması və onların miqrantlar arasında tərəfdar toplaması doğrudan da ciddi təhlükədir. Bu, klassik terror modelindən fərqli olaraq daha diffuz və nəzarəti çətin bir təhlükə forması yaradır. Xüsusilə sosial-iqtisadi problemlərin dərin olduğu MDB ölkələri üçün bu, daxili sabitliyi sarsıda biləcək faktordur.

Ən diqqətçəkən məqamlardan biri isə Qərb kəşfiyyat orqanlarının aktivliyinin qabardılmasıdır. Bu, artıq açıq şəkildə geosiyasi rəqabətin təhlükəsizlik diskursuna daxil edildiyini göstərir. Yəni təhlükə yalnız terror qrupları deyil, həm də təsir uğrunda mübarizə aparan dövlətlər kimi təqdim olunur. Bu isə MDB ölkələrinin qarşısında seçim dilemmasını daha da kəskinləşdirir.

FTX direktorunun xəbərdarlığı göstərir ki, MDB məkanında təhlükəsizlik məsələləri artıq təkcə terrorla mübarizə çərçivəsində deyil, daha geniş - geosiyasi rəqabət və təsir zonaları müstəvisində formalaşır. Real təhlükələr mövcuddur, lakin onların necə təqdim olunması və hansı kontekstdə qabardılması da az əhəmiyyət daşımır. MDB ölkələri üçün əsas məsələ bu balansı düzgün qiymətləndirmək və milli maraqlar çərçivəsində müstəqil təhlükəsizlik strategiyası qurmaqdır.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026

# MSK seçici siyahılarını dəqiqləşdirdi - seçki 4 ildən tez ola bilər

## Siyahı hər dəfə yenilənəndə cəmiyyətdə seçkilər və ya referendum ola biləcəyi ehtimalı yaranır; **hüquqşünas:** "Gələn ilin sonlarında və ya 2028-ci ilin əvvəllərində..."



**Azərbaycanda seçici siyahılarının dəqiqləşdirilməsi prosesi başa çatıb. Seçki Məcəlləsinə əsasən, məntəqə seçki komissiyaları hər il fevralın 5-dək öz ərazilərində seçici siyahılarını dəqiqləşdirərək dairə seçki komissiyalarına (DSK) təqdim ediblər. DSK-lar isə aprelin 5-dən gec olmayaraq seçki dairələri üzrə dəqiqləşdirilmiş ilkin seçici siyahılarını Mərkəzi Seçki Komissiyasına (MSK) verib. MSK da öz növbəsində vahid seçici siyahısının ölkə üzrə tərtib edilməsini həyata keçirib. Seçicilərin daimi siyahısı hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyası tərəfindən MSK-nın müəyyənləşdirdiyi formada hər il mayın 30-dək təsdiq edilməlidir. Beləliklə, MSK mayın 26-da seçici siyahılarının dəqiqləşdirilməsi prosesinə yekun vurub.**

Seçici siyahıları hər dəfə yenilənəndə cəmiyyətdə seçkilər və ya referendum ola biləcəyi ehtimalları yaranır. Növbədənkənar seçkilər qərarı olmayacağı halda, Azərbaycanda 2026-cı ildə seçkilər nəzərdə tutulmur. Ölkədə son prezident seçkisi 7 fevral 2024-cü ildə keçirilib. Növbədənkənar prezident seçkisi Azərbaycanın bütün ərazisində suverenliyinin bərpa olunduqdan sonra keçirilən ilk seçki kimi tarixə düşdü.

Azərbaycanda son parlament seçkiləri də növbədənkənar keçirilib. Milli Məclis buraxılıb, 1 sentyabr 2024-cü il tarixində isə yeni parlament seçkiləri keçirilib.

Əsas qanunvericiliyə görə, Milli Məclisə seçkilər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Buna əsasən, əgər növbədənkənar seçkilərə gedilməsə idi parlament seçkisi 3 noyabr 2024-cü il tarixində keçirilməli idi.

Azərbaycanda ən son bələdiyyə seçkiləri isə 29 yanvar 2025-ci ildə baş tutub, bu seçkilər 118 seçki dairəsi üzrə 5000-dən çox məntəqədə 15.000-dən çox bələdiyyə üzvünün seçilməsi üçün aparılıb. Seçkilər ötən beş ilin sonunda keçirilməli idi, lakin digər seçkilərlə əlaqədar olaraq 2025-ci ilin yanvarına təxirə salındı.

Beləliklə, aydın olur ki, əgər qarşıdakı müddətdə növbədənkənar seçki qərarı olmayacaqsa, növbəti prezident seçkisi 2031-ci ildə, parlament seçkiləri 2029-cu ildə, bələdiyyə seçkiləri 2029-cu ilin dekabrında keçiriləcək. Bu isə o deməkdir ki, qarşıdakı 4 ildə Azərbaycanda seçkilər olmayacaq.

**Hüquqşünas Qulamhüseyn Əlibəyli** "Yeni Müsavat"a dedi ki, seçici siyahılarının dəqiqləşdirilməsinin növbədənkənar seçkilərin keçirilməsi ilə heç bir əlaqəsi yoxdur: "Bu, qüvvədə olan seçki qanunvericiliyinin tələbidir. Seçki Məcəlləsinə əsasən, hər yeni ilin əvvəlində - yanvar ayında seçki məntəqələrinin hamısında seçici siyahılarının dəqiqləşdirilməsi prosesinə start verilir. Bu dəqiqləşdirmə hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyaları tərəfindən aparılır və fevral ayının 5-dən gec olmayaraq müvafiq dairə seçki komissiyalarına təqdim olunur. Məntəqələr üzrə təqdim olunmuş seçici siyahıları əsasında seçki dairələri üzrə seçici siyahılarının dəqiqləşdirilməsi həyata keçirilir və sonra isə seçki dairələri üzrə təqdim olunmuş siyahılar əsasında Mərkəzi Seçki Komissiyası bütün ölkə üzrə seçici siyahılarını dəqiqləşdirir. Bu proses mayın 25-dək başa çatmalıdır. Yeni seçici siyahılarının hər il dəqiqləşdirilməsini həmin il hər hansı seçkinin (parlament, prezident və ya bələdiyyə seçkiləri) keçirilməsinin əlaməti hesab etmək olmaz. Baxmayaraq ki, siyasi çevrələrdə vaxtaşırı olaraq belə bir fikir ortalığa atılır. Ümumiyyətlə, növbədənkənar seçkilərin keçirilməsi hüquqi baxımdan parlament və prezident seçkilərinə münasibətdə nəzərdə tutulub. Bütün ölkə üzrə növbədənkənar bələdiyyə seçkilərinin keçirilməsi qüvvədə olan seçki qanunvericiliyi ilə nəzərdə tutulmayıb. Yalnız Seçki Məcəlləsində müəyyən edilən bəzi hallarda ayrı-ayrı bələdiyyələr üzrə Mərkəzi Seçki Komissiyasının qərarı ilə əlavə seçkilər keçirilə bilər".

**Hüquqşünas dedi ki, konstitusiyaya görə, prezident bir neçə halda Milli Məclisi buraxır və növbədənkənar parlament seçkiləri təyin edir:** "Son 2 parlament seçkiləri (2020 və 2024-cü ildə) növbədənkənar qaydada keçirilib. Hər 2 növbədənkənar parlament seçkisinin keçirilməsi təşəbbüsü Milli Məclisin özündən gəlib. 2019-cu il dekabr ayının 5-də parlament seçkilərinin keçirilməsinin konstitusiya ilə müəyyən edilmiş vaxtına təxminən 11 ay qalmış Milli Məclis daha öz səlahiyyətlərini icra edə bilməməsi barədə qərar qəbul edərək buraxılması və növbədənkənar parlament seçkilərinin təyin olunması üçün Prezidentə müraciət edib. Prezident isə Konstitusiya Məhkəməsinin razılığı ilə Milli Məclisi buraxaraq təxminən 9 ay tez (2020-ci il fevral ayının 9-da) növbədənkənar seçkilər təyin edib. 2024-cü ildə də parlament seçkilərinin keçirilməsinin konstitusiya ilə müəyyən edilmiş vaxtına təxminən 6 ay qalmış Milli Məclisin təşəbbüsü və Konstitusiya Məhkəməsinin razılığı ilə Milli Məclis buraxılmış və təxminən 2 aydan tez (1 sentyabr 2024-cü ildə növbədənkənar seçkilər keçirilib.

Növbədənkənar prezident seçkisi prezident vaxtından əvvəl vəzifədən getdikdə və prezidentin öz təşəbbüsü ilə istənilən zaman keçirilə bilər. Prezidentin öz təşəbbüsü ilə növbədənkənar prezident seçkisinin keçirilməsi bütövlükdə fəaliyyətdə olan prezidentin iradəsindən asılıdır. Belə ki, konstitusiyaya görə, prezident istənilən zaman növbədənkənar prezident seçkisi elan edə bilər. Son 2 prezident seçkisi də növbədənkənar qaydada keçirilib. 2018-ci ildə prezidentin səlahiyyət müddətinin bitməsinə təxminən 6 ay qalmış, 2024-cü ildə isə bir il 2 ay qalmış növbədənkənar prezident seçkisi keçirilib".

**Hüquqşünas dedi ki, Milli Məclisə növbəti seçkilər 2028-ci ilin noyabr ayında, növbəti prezident seçkisi isə 2031-ci ilin fevral ayında keçirilməlidir:** "Lakin əvvəlki 2 seçkinin təcrübəsini nəzərə alsaq, ilk olaraq parlament seçkilərinin növbədənkənar qaydada keçirilməsi ehtimalı daha böyük görünür. Gələn ilin sonlarında və ya 2028-ci ilin əvvəllərində Milli Məclisə növbədənkənar seçkilərin keçiriləcəyini güman etmək olar. Prezident seçkisinin də növbədənkənar keçirilməsi nəzəri və hüquqi cəhətdən mümkün olsa da, bu məsələyə daha gec baxılması və ya ümumiyyətlə baxılmaması ehtimalı daha böyükdür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Prezident Administrasiyasında daha bir partiya sədri ilə görüş

**Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə partiya sədrləri arasında görüşlər davam edir. Növbəti belə görüş Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı ilə keçirilib.**

Vətəndaş Həmrəyliyi Partiyasının Mətbuat Xidmətinin yaydığı məlumata görə, görüşdə partiya sədrinin müavini, Milli Məclisin deputatı Tənzilə Rüstəmxanlı da iştirak edib.

Müzakirələr zamanı ölkədə siyasi dialoq mühitinin inkişaf etdirilməsi, siyasi partiyaların bu prosesdəki rolu, sağlam siyasi münasibətlərin formalaşdırılması, milli maraqların qorunması naminə əməkdaşlığın gücləndirilməsi kimi məsələlər geniş şəkildə nəzərdən keçirilib. Eyni zamanda milli həmrəyliyin möhkəmləndirilməsi, demokratik ənənələrin inkişafı və ölkə həqiqətlərinin beynəlxalq müstəvidə təbliğində ziyalıların rolunun önəmi vurğulanıb.

Sabir Rüstəmxanlı çıxışı zamanı ölkə rəhbərliyi tərəfindən siyasi partiyaların fəaliyyətinə göstərilən diqqətin əhəmiyyətini xüsusi qeyd edib. O bildirib ki, yaradılmış siyasi mühit cəmiyyətin müxtəlif potensiallarının səfərbər olunmasına ciddi töhfə verir. Partiya sədri gənclərin ictimai-siyasi proseslərə daha fəal şəkildə cəlb edilməsinin vacibliyini də diqqətə çatdırıb.

VHP sədri rəhbərlik etdiyi partiyanın həyata keçirdiyi layihələrdə dövlət dəstəyini hər zaman hiss etdiyini bildirib və buna görə ölkə rəhbərliyinə təşəkkürünü ifadə edib. Görüşdə Vətən müharibəsində qazanılmış Zəfərdən sonra yaranan milli birliyin qorunub saxlanılmasında siyasi partiyaların üzərinə düşən məsuliyyət də xüsusi qeyd olunub.

Sabir Rüstəmxanlı həmçinin Prezident İlham Əliyev tərəfindən "Şərəf" ordeni ilə təltif edilməsini yüksək qiymətləndirdiyini bildirib. O qeyd edib ki, bu addım ölkədə mədəniyyətə, ədəbiyyata və incəsənətə verilən diqqətin bariz nümunəsidir.

Görüşün sonunda Prezident Administrasiyasının rəsmisi Vətəndaş Həmrəyliyi Partiyasına milli maraqların qorunması istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026

# Rubionun mübhəm səfərinin kodları

## ABŞ dövlət katibinin gəlişi regionda həssas geosiyasi balansı daha da mürəkkəbləşdirə bilər - Ermənistandakı seçkilərə müdaxilə, yoxsa...

**ABŞ dövlət katibi Marko Rubionun Ermənistana planlaşdırılan səfərinin yalnız 24 saat əvvəl elan olunmasının təhlükəsizlik məqsədilə olub-olmaması bilinmir. Ermənistan XİN-in məlumatına görə, İrəvanda ikitərəfli sənədlərin imzalanması planlaşdırılır. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bunu bildirib. Rubionun səfəri Ermənistanda 7 iyunda keçiriləcək parlament seçkiləri ilə əlaqəli deyil. "ABŞ dövlət katibi Marko Rubionun səfəri seçkilərlə necə əlaqəli ola bilər? Bunun seçkilərlə nə əlaqəsi var?", - deyə Mirzoyan soruşub.**

Günün sonunda bəlli olub ki, Rubio və erməni həmkarı arasında anlaşma memorandumu imzalanıb.

"Yeni Müsavat" qeyd edir ki, Ermənistanda seçki kampaniyasının qızışdığı bir vaxtda ABŞ-nin nüvə mütəxəssisləri İrəvana gəliblər. Erməni mediası yazır ki, səfərdə məqsəd Ermənistanda kiçik modul reaktor (SMR) tikilməsi imkanları və texniki perspektivləri müzakirə olunub. Qeyd etmək lazımdır ki, səfər Ermənistanın yeni nüvə enerji bloku üçün texnologiya seçimi ilə bağlı vacib bir qərarla üzləşdiyi bir vaxtda baş tutur. Maraqlıdır ki, hakim Mülki Müqavilə Partiyasının seçki proqramında 2027-ci ilin sonuna qədər yeni nüvə enerji bloku üçün texnologiyanın son seçimini dəqiqləşdirmək və həyata keçirmək planlaşdırılır. Bildirilir ki, Paşinyan hakimiyyəti və seçkilərdə iştirak edən qərbyönümlü qüvvələr bu mövzunu yenidən fəal şəkildə istismar etməyə çalışır və Ermənistanın artıq Amerika variantını seçməyə meyilli olduğu tezisini yayırlar.

Xatırladaq ki, 9 fevral 2026-cı ildə İrəvada Ermənistanın baş naziri Nikol Paşinyan və ABŞ-nin vitse-prezidenti C.D.Vens nüvə enerjisi sektorunda əməkdaşlıq üzrə "1, 2, 3 Sazişi" üzrə danışıqların başa çatması ilə bağlı birgə bəyanat imzalayıblar. Vens əmin edib ki, sənəd tam təsdiqləndikdən sonra Amerika və Ermənistan şirkətlərinin mülki nüvə layihələri üzrə müqavilələr imzalamasına yol açacaq.

ABŞ dövlət katibinin anlaşma memorandumu imzalamaq üçün qısamüddətli səfəri Cənubi Qafqazda onsuz da həssas olan geosiyasi balansı daha da mürəkkəbləşdirə bilər. İlk növbədə, Kreml bu səfəri ABŞ-nin regionda fəallaşmasının göstəricisi kimi qəbul edir. Son illərdə Ermənistanın Qərblə siyasi və təhlükəsizlik sahəsində əlaqələri genişləndirməyə çalışması Rusiyada narahatlıq doğurur. Bu baxımdan Rubionun səfəri simvolik olsa belə, Moskva üçün siyasi mesaj xarakteri daşıyır: Vaşinqton İrəvan üzərində təsirini artırmağa çalışır.



Rusiya- Ermənistan münasibətləri hazırda çox gərgindir. Amma Ukrayna müharibəsi fonunda Moskva Cənubi Qafqazda kəskin eskalasiyadan qaçmağa çalışır. Bu səbəbdən Rubionun səfərinə veriləcək reaksiya daha çox diplomatik narazılıq siqnallar səviyyəsində ola bilər. Bununla belə, bu səfərin Moskva ilə razılaşdırılması və ya ən azından xəbərdar edilməsi ehtimalı yüksəkdir.

Nəticə etibarilə, belə bir səfər böyük böhran yaratmasa da, regionda ABŞ-Rusiya rəqabətinin növbəti epizodu kimi tarixə düşə bilər. Əsas sual isə Ermənistanın bu rəqabət şəraitində necə balanslı siyasət yürüdə biləcəyidir. Bu balansın pozulması isə Cənubi Qafqazda yeni gərginlik mərhələsinin başlanmasına gətirib çıxara bilər.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a açıqlamasında deyib ki, Rubionun səfərinin Paşinyana dəstək məqsədi daşıdığına əmindir. Onun sözlərinə görə, mayın əvvəlində Avropa Siyasi Birliyinin toplantısı çərçivəsində Fransa prezidenti Makronun Gümrüdə keçirilən konsert aksiyasında iştirakı, İrəvanda küçələri gəzib vətəndaşlarla görüşü Paşinyana necə seçki dəstəyi idisə, dövlət katibinin Ermənistana gəlişi də bu qəbildəndir. Hüquq müdafiəçisi Paşinyanın favorit olduğunu düşünür və qalib gələcəyini gözləyir: "Belə bir kritik ərəfədə Rubionun səfəri Rusiyaya ciddi bir cavabdır. Bu, o zamandır ki, dövlət katibi ölkəsinin Ukrayna böhranı üzrə danışıqlarda vasitəçilikdən çəkildiyini açıqladı. Yəni Tramp hakimiyyəti Rusiya ilə məsafə yaratdı. Bu situasiyada isə Moskvanın Cənubi Qafqazda ən ciddi təsiri olan ölkəyə səfər etməklə bir demarş nümayiş etdirir".

**Ç.Qənizadə ABŞ-nin Ermənistanda ciddi planları olduğunu bildirib:** "Bura "Tramp yolu", AES tikilməsi, müxtəlif humanitar proqramlar və layihələr vasitəsi ilə təsir gücün artırmaq daxildir. Baydendən sonra belə gözləntilər var idi ki, ABŞ Ermənistandan əlini çəkəcək. Amma belə olmadı, əksinə, Vaşinqton Cənubi Qafqazda təsirlərini daha da artırmağı hədəfləyib. O baxımdan, Rubionun gəlişi təkcə seçkilərlə bağlı deyil, bütövlükdə Ermənistanla bağlı strateji məsələlər gündəlikdədir".

**Siyasi icmalçı Asif Nərimanlı** da belə hesab edir ki, Rubionun Ermənistana səfərinin "ikitərəfli tərəfdaşlığı gücləndirmək və bir sıra sazişlər imzalamaq" məqsədi daşıdığı bildirilsə də, bunun 7 iyunda keçiriləcək parlament seçkilərindən öncə baş verməsi "gizli missiya"ya diqqət çəkir. Onun qənaətinə görə, söhbət Vaşinqtonun Ermənistanın baş naziri Nikol Paşinyana seçki dəstəyindən gedir və bu planı "diplomatik müzakirələr" adı altında gizlətmək uğursuz cəhddən başqa bir şey deyil. Siyasi təhlilçi hesab edir ki, hər şey ortadadır: "Rubionun İrəvan səfəri ABŞ-nin seçkidə Paşinyan komandasının yanında olduğunu nümayiş etdirməyə hesablanıb. Bu nümayişin erməni seçicilərin seçiminə nə qədər təsir edəcəyi müəmmalı olsa da, başda Rusiya olmaqla prosesə müdaxilə etmək istəyən tərəflərə açıq mesaj xarakteri daşıdığı bəllidir".

**A.Nərimanlının fikrincə, əslində Rubionun seçkiyə sayılı günlər qalmış Ermənistana səfəri də elə prosesə müdaxilə kimi qiymətləndirilə bilər:** "Rusiyanı seçkilərə müdaxilədə ittiham edən Qərb analoji siyasəti özünə rəva görür. Avropa Birliyi Moskvanın seçkiyə mümkün müdaxiləsinə qarşı Ermənistana "xüsusi missiya" göndərdi, daha sonra İrəvanda keçirilən Avropa Siyasi Birliyinin sammitində hakimiyyətə dəstək verdilər. İndi Rubionun timsalında ABŞ növbəti dəstək addımı atır. Trampın hakimiyyətə gəlişindən sonra Vaşinqton-Brüssel xəttində müşahidə olunan uzaqlaşma fonunda hesab etmək olar ki, ABŞ Avropa Birliyindən geri qalmaq istəmir. Hərçənd ABŞ və AB-nin Paşinyana seçki dəstəyinin hədəfi eynidir: İrəvanda Moskvanın mövqelərinə zərbə vurmaq, Ermənistanla Qərb arasında yaxınlaşma körpüsünü gücləndirmək, ümumilikdə Rusiyanın regionda təsirini zəiflətmək".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## Ermənistan kimin dostu, kimin düşmənidir?

### "İrəvan Moskva ilə normal və sabit münasibətləri qoruyub saxlamağa və inkişaf etdirməyə sadiqdir"

**"Ermənistan Rusiya ilə siyasi və iqtisadi əlaqələri kəsmək niyyətində deyil". AYNA.AZ erməni mediasına istinadən bildirir ki, bu sözləri Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib.**

Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyevin Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya ilə münasibətləri kəsməyi seçməsi ilə bağlı açıqlamasına münasibət bildirən Mirzoyan vurğulayıb: "Ermənistan Rusiya ilə siyasi, iqtisadi və ya digər əlaqələri kəsməkdə maraqlı deyil".

O əlavə edib ki, "İrəvan əksinə, Moskva ilə normal və sabit münasibətləri qoruyub saxlamağa və inkişaf etdirməyə sadiqdir".

"Moskva Ermənistanın Rusiya əleyhinə ritorika ilə məşğul olmayacağı ilə bağlı açıqlamalar eşidib". Bu sözləri isə Kremlin mətbuat katibi Dmitri Peskov deyib. O qeyd edib: "Bu yaxınlarda həm baş nazir Nikol Paşinyanın, xarici işlər naziri Mirzoyanın Ermənistanın Rusiya əleyhinə ritorika ilə məşğul olmayacağı ilə bağlı açıqlamalarını eşitdik. Biz bu açıqlamaları eşitmişik. Ermənistan Rusiyanın dostudur və iki ölkə ən inkişaf etmiş inteqrasiya proseslərindən biri olan Avrasiya İqtisadi Birliyinin bir hissəsidir. Prezident Vladimir Putin bu həftə Astanaya dövlət səfəri edəcək. Bundan sonra, cümə günü dövlət və hökumət başçıları bütün günü AİB-ə həsr edəcəklər və AİB Ali Komissiyasının iclası keçiriləcək".

**Peskov deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyan seçki kampaniyası ilə bağlı səbəblərə görə AİB Komissiyasının iclasında iştirak etməyəcək:** "Eyni zamanda ümid edirik ki, Ermənistan tərəfi bu və ya digər şəkildə bu çox vacib görüşdə iştirak edəcək".

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026

**"Biz heç də həmişə güclü olmamışıq, onilliklər ərzində bizi məhv etməyə çalışıblar, ancaq həmişə bu şüarı qoruyub saxlamışıq: "Məğlubiyyəti qələbəyə çevirmək...""**



Raul Kastro

# Kubanın "Xamenei"si

## Tramp indi də "azadlıq adası"nın 94 yaşlı əfsanəvi inqilabçısı Raul Kastronu Maduro kimi oğurlamağı nəzərdən keçirir - "El Çino"nun həyat hekayəsi...

Kuba inqilabının əfsanəvi lideri Fidel Kastronun belə heyrətamiz fikirləri çoxdur, amma "məğlubiyyəti qələbəyə çevirmək" bir devrimçinin söylədiyi ən yaxşı aforizm ola bilər. Kuba inqilabı, qələbəyə gedən mübarizə yolu, onun liderləri haqda günlərlə yazmaq və danışmaq olar. İran İslam inqilabı qədər sehrli, hər döyüşü bir tarix olan Kuba inqilabının hər dəqiqəsi haqda yalnız Çe Gevaranın "Gündəliyi"ndən öyrənə bilərsiniz. Əfsanəvi inqilabçının pasporta çevrilmiş o kitabını oxumuş biri kimi deyə bilərəm ki, Kubada Baptista rejimini devirmək üçün Meksikadan "Qranma" gəmisində gələn bu qəhrəmanlar həqiqətən də möcüzə yaradıblar. Yəni ac-yalavac, silah-sursatsız Kuba sahillərinə gələn bu inqilabçılar meşələrdə, dağlarda nələr yaşayıblar, yüzlərlə itki veriblər, sağ qalanlar zəfərə necə nail olublar və sonda paytaxt Havanaya giriblər - hər biri Çe Gevaranın "Gündəliyi"ndə var.

**67 il sanksiya altında**

... Kubada kommunistlərin qələbəsindən bəri ABŞ bu ölkəyə sanksiya tətbiq etməkdədir. 1953-cü ildə başlanan inqilabi hərəkat 6 il sonra 1959-da qələbə çalıb. Düz 67 ildir ki, Birləşmiş Ştatlar Kubaya sanksiya tətbiq etməklə qonşusunu yoxsul vəziyyətdə saxlayır. Çünki Kubanın ABŞ-dən başqa heç bir ölkə ilə quru sərhədi yoxdur. Vaşinqton isə belə bir coğrafi taleyi olan qonşusunu blokadada saxlayır. Ancaq Kuba bu 67 illik blokada şəraitində yoxsul olsa da, tab gətirməyə çalışıb, təhsil və səhiyyəni inkişaf etdirib. Xüsusən Ümumdünya Səhiyyə Təşkilatı Kubada səhiyyənin vəziyyətini yüksək qiymətləndirib, hətta bir dəfə dünyada birinci yeri tutub. Yəni ABŞ Kubaya sanksiya tətbiq etməsəydi, ölkə 67 il ərzində böyük inkişaf yolu keçərdi. Yaxud Fidel Kastro ABŞ imperializminə boyun əysəydi, Kuba sözəbaxan ölkə adlanardı, "azadlıq adası" yox...

**İki ABŞ təyyarəsinin vurulması**

İndi isə Trampın ABŞ-si Kuba inqilabının əfsanələrindən olmuş keçmiş rəhbər, 94 yaşlı Raul Kastronun saxlanmasını nəzərdən keçirir. Hər halda, "Nyu-York Tayms" nəşri belə yazıb. Yəni Venesuelada prezident Nikolas Maduronu oğurlayıb ABŞ həbsxanasına gətirdikləri kimi, indi Kuba inqilabının bəlkə də sağ qalan sonuncu mogikanı - Raul Kastro haqda belə bir əməliyyat istisna edilmir. Əlbəttə, bu mümkündür. İranda inqilabın liderlərindən olmuş 86 yaşlı bir ahıl kişini ailəsi, nəvəsi ilə birlikdə öldürən amerikalılar üçün 94 yaşlı Kastronu da qandallayıb Nyu-York türməsinə gətirmək çətin olmaz. Hərçənd Kuba ordusu buna müqavimət göstərəcək, amma ABŞ resurslarına görə qonşusundan üstündür.

Daha əvvəl isə mətbuat ABŞ-nin 94 yaşlı Raul Kastroya qarşı 1996-cı ildə Kuba Hərbi Hava Qüvvələrinin "Qardaşlar köməyə gəlir" mühacir təşkilatının iki təyyarəsini vurması ilə əlaqəli ola biləcək ittihamlar irəli sürməyə hazırlaşdığını xəbər verib. Rəsmi Havana isə o dövrün hadisəsini belə əsaslandırır ki, ABŞ təyyarələri Kubanın hava məkanını pozub və onların vurulması hərbi hava qüvvələrinin legitim hüququ olub. Amma bu azmış kimi, ABŞ nəşrləri bundan da absurd iddialar tirajlayır - guya Kuba Birləşmiş Ştatlara hücum edəcək. Belə bir ssenariya hətta Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da gülüb. "Başa düşürsünüz, bu, artıq "Homer gülüşünə" (qarşısıalınmaz qəhqəhə) səbəb olur. Kubanın ABŞ-yə hücum etmək istədiyini bildirən bir nəşri necə ciddiyə almaq olar? Onilliklərdir Amerika blokadası altında olan Kubada belə planları təsəvvür etmək çətin olsun. İnformasiya və texniki blokada da daxil olmaqla, bütün mümkün halqalarla, yəni Amerikanın aqressiv qayğısı ilə əhatə olunmuş Kuba ABŞ-yə hücum etmək istəyir? Başa düşürsünüz, ya müəllif dəli olub, ya da ictimai rəyi formalaşdırmağa hesablanan qəsdən törədilmiş təxribat barədə danışmalıyıq", - o bildirib.

Qeyd edək ki, "Axios" Kubanın 300 dronla ABŞ-yə hücuma hazırlaşdığı haqda iddia yaymışdı. Göründüyü kimi, "Trampın Amerikası" xeyli vaxtdır ki, ictimai rəyi "Kuba əməliyyatı"na hazırlayır - gah müharibə olacağı, gah Kastronun həbs ediləcəyi xəbərləri ilə manipulyasiya edir.

**Kastroların ilk qanlı hücumu**

94 yaşlı Raul Kastro isə Kuba inqilabının obrazlı desək, Əli Xameneisi adlandırıla bilər. Əgər İran islam inqilabının lideri Ruhulla Xomeyni idisə, Kubada da Fidel Kastrodur. Onun qardaşı Raul Kastro isə bəli, şəriət inqilabının öldürülmüş son lideri Əli Xamenei ilə müqayisə edilə, yaxud bənzədilə bilər. Təbii ki, Kuba inqilabında argentinalı Çe Gevaranın əfsanəvi yeri toxunulmazdır. Sadəcə, sağ qalan kubalı inqilabçı Raul Kastrodur. Təbii ki, onun mərhum həyat yoldaşı Vilma Espin də bu inqilabın əfsanəvi xanım simalarından biridir. Onlar çiyin-çiyinə Baptista rejiminə qarşı döyüşüblər. Bəs Kubada inqilabi proses niyə başladı?

Ölkə 50-ci illərdə ABŞ inhisarçılığının qurbanına çevrilmişdi. Yəni tam şəkildə ABŞ investisiyasından asılı idi. Fulhensiyo Batista hakimiyyətə gələndən sonra Kubada hərbi-diktatura elan edərək bir çox partiyaları, həmçinin Kommunist Partiyasını da ləğv edir. Ölkədə konstitusiya ləğv olunur. Ali təhsilli kubalılar diktatura ilə barışmaq istəmirdilər. Onların içərisində (Fidel Kastro və onun qardaşı Raul Kastro) Kastro qardaşları Kuba Xalq Partiyasının üzvləri idi. Kastro qardaşları partiyanın diktatura ilə mübarizə aparacağını düşünürdülər, amma partiyanın qətiyyətsizliyi nəticəsində Fidel və Raul təşkilatı tərk edirlər. Onlarla birlikdə bir neçə gənc kubalı partiyanı tərk edir və sərbəst mübarizəyə başlayırlar. Onlar silah əldə etmək üçün Fidel Kastro və adamları Santyaqo-de-Kuba şəhərində Monkada kazarmasını və Bayamo şəhərindəki kazarmanı ələ keçirmək istəyirdilər. Bir il ərzində hücuma hazırlıq gedirdi. Silahlanmaq üçün Fidelin tərəfdaşları hər şeyi satmağa məcbur idilər. Lakin kazarmada iki saatlıq döyüşdən sonra inqilabçılar məğlub olur. Çoxu ölür. Fidel Kastro vəkil olduğuna görə məhkəmədə hüquqşünasdan imtina edir və özünü müdafiə edir. O, 15 il azadlıqdan məhrum olunur. Daha sonra Batista milləti sakitləşdirmək üçün və yeni inqilabdan qorxaraq Fideli və tərəfdaşlarını azad edir.

**Qardaşdan qardaşa ötürülən hakimiyyət**

Sonra Kastro qardaşları Meksikaya köçür və burada Çe Gevara ilə tanış olurlar. Nəhayət, 82 nəfərlik heyət gəmi ilə Kubaya qayıdır və Fidel inqilabçıları Syerra-Maestra dağlarına aparır. Batista 1000 nəfərlik ordunu inqilabçıların üstünə yollayır, yaxınlıqda bütün yollar bağlanır. Qanlı döyüşlərlə Syerra-Maestra dağlarına yalnız 22 nəfər sağ çatır. Onlardan biri də qardaşı - bu gün ABŞ-nin həbs etmək istədiyi, qələbədə xüsusi rolu olmuş Raul Kastrodur...

**Bəs ABŞ-nin hədəfində olan 94 yaşlı Raul Kastro kimdir?**

Raul Modesto Kastro Ruz 1931-ci il, iyunun 3-də Oryente vilayətində dünyaya göz açıb. Onun xalq arasında ləqəbi "El Çino"dur. Yəni çinli deməkdir. Bu da gözlərinin qıyıq olması ilə əlaqələndirilib. Qardaşların fərqinə gəlincə, əgər Fidel daha çox siyasi-ideoloji xətti tutubsa, Raul hərbi və təşkilati məsələlərə məsul olub. Ona görə də o, inqilabçı silahlı dəstələrə başçılıq edib. Təsadüfi deyil ki, qələbədən sonra ölkənin müdafiə naziri təyin olunur. Fidel Kastro Dövlət Şurasının sədri vəzifəsindən 2008-ci il fevralın 18-də istefa verib. O, 2006-cı ilin iyul ayında böyrəyində cərrahiyyə əməliyyatı keçiriləndən sonra ali dövlət postunu müvəqqəti olaraq artıq qardaşına ötürmüşdü. Uzunmüddətli xəstəliyinə baxmayaraq Fidel Kastronun Xalq Hakimiyyəti Milli Assableyasına namizədliyi irəli sürülmüş və yanvarın 20-də keçirilən seçkidə o, qardaşı Rauldan 1 faiz az səs toplamışdı.

Raul Kastro qardaşından 5 yaş kiçikdir. Hələ 2001-ci ildə Fidel Havanada keçirilən mitinqdə huşunu itirəndən sonra qardaşını öz varisi elan etmişdi. Kuba parlamenti 2008-ci il fevralın 24-də 76 yaşlı Raul Kastronu ölkədə ən ali vəzifəyə - Dövlət Şurasının sədri vəzifəsinə seçib. 2021-ci ildə isə istefa verib. Yəni inqilabçı qardaşlar istefa verərək postlarını ötürüblər. Raul Kastronun rəhbərliyi dövründə ölkədə bir sıra iqtisadi islahatlar həyata keçirilib ki, böhrandan çıxmaq mümkün olsun.

**Dağlarda eşq, Obama ilə görüş...**

2014-cü ildə Raul Kastro ABŞ prezidenti Barak Obama ilə görüşərək yarım əsrlik diplomatik böhrana son qoyur, hər iki ölkədə səfirliklər açılır. Amma Donald Trampın birinci prezidentliyi dövründə ABŞ-Kuba əlaqələri yenidən korlanır. Ağ Ev lideri o zaman Kubaya sanksiyaları gücləndirir və əlaqələr pozulur. 2018-ci ildə Raul prezidentliyi Migel Dias Kanelə ötürür. Kubada Kastro ailəsindən olmayan ilk prezident seçilir. Amma Raul Kastro Kommunist Partiyasının Mərkəzi Komitəsinin sədri kimi 2021-dək fəaliyyətini davam etdirir və bu gün də ölkənin siyasi həyatında təsirləri qalmaqdadır.

Onun həyat yoldaşı, inqilabçı Vilma Espin də Kubanın 5 önəmli şəxslərindən biri idi. İnqilab illərində onun evi hazırlıq qərargahı olmuşdu. Onun Raulla dağlarda başlayan eşq macərası 1959-cu ildə Santyaqoda iki min nəfərin iştirakı ilə baş tutan toy mərasimində möhürlənir. Onların dörd övladı var - Mariela, Deborah, Nilsa və Alexandro. Deborah Vilmanın inqilab illərində kod adı idi və gələcək qaynı Fidel tərəfindən verilmişdi.

Onların sonradan ayrıldığı haqda söz-söhbətlər yayılsa da, ictimaiyyət arasına bir yerdə çıxırdılar. Vilma ilə vida mərasimində isə Raul göz yaşlarını gizlətməmişdi. Ona görə də indi Raulu nostalji ilə yaşayan tənha inqilabçı qoca adlandırmaq da olar. Çünki nə silahdaşı-qardaşı Fidel, nə həyat və mübarizə yoldaşı Vilma, nə də Çe var. O, vətənində ahıl həyatını yaşamağa davam edərkən, amerikalı qoca Trampın ağlından tarixi bir şəxsiyyəti, ABŞ liderindən fərqli olaraq, ölməkdən qorxmayan Kastronu oğurlamaq xəyalları keçir...

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"ın redaktoru**

Yeni MÜSAVAT
N 20 (8869) 27 may 2026



# Çaxmağı çax, papağı tapaq

Zamin HACI
zaminhaci@gmail.com

**Bir çoban olur, Allaha dua edir ki, quraqlıq olmasın, ot-mot bitsin, heyvanlar yesin. Sonra dəhşətli yağış yağır, göy gurultusu, sel, dolu, uçqun, nə bilim, daha nələr olur, qoyunları daşqın aparır, çoban özü isə dağın yamacıyla diyirlənir, papağı başından düşür. Hava da zülmət qaranlıq imiş, çoban papağı tapa bilmir, üzünü göyə tutub deyir: "Qurban olduğum, başa düşdük, bizə yağış lazım deyilmiş. Ancaq heç olmasa o çaxmağı yenə çax, papağı tapım".**

Sözümün canı budur ki, həqiqətən 26 mayda Bakıya yağan dolu-yağış-leysanı mən ilk dəfə görürdüm. Daha dəqiqi, Qarabağda, Şamaxı tərəflərdə görmüşəm, Abşeronda xatırlamıram. Bu nəsə ayrı fəlakət idi, yaxşı qurtardıq, bəlkə də. Ancaq görünür, belə hadisələrə hazır olmalıyıq, çünki təbii fəlakətlərimiz təkrarlanmağa başlamışdır. Sabah Bakıya tornado gəlib maşınları havaya qaldırıb AzTV-nin başına qoysa, Xəzərdən sunami çıxsa, canım sənə desin, Masazırdan palçıq yox, əsl vulkan püskürsə mən buna artıq təəccüb etməyəcəyəm.

Girişdə yazdığım pritçanın isə səbəbi var. Məncə, göydən buz yağmağı bizim... uşaq pulu-zad arzularımızla bağlı idi. Yuxarıdan bizə ekoloji-sosial-siyasi mesaj verildi ki, qələtinizi eləyin, oturun yerinizdə, şükür eləməyə davam edin. Yadıma gəlir, 2000-ci ildə parlament seçkisindən dərhal sonra da Bakıda zəlzələ olmuşdu, camaat özünü balkondan atmışdı. O vaxtdan bəri biz demokratik seçki, nə bilim, parlament-filan arzulamırıq. Nəyimizə lazımdır? Başımız salamat olsun. Yalnız bir dəfə, 2020-ci ilin fevral seçkisində xalqımız çaşmışdı. Hamı namizədliyini-zadı irəli sürürdü, deyərdin yel əsib, qoz tökülüb. Axırı nə oldu? Pandemiya.

Ancaq biz demokratik seçki təcrübəmizi bütün dünyaya yaymalıyıq, buna şübhə etmirik. Hazırda çox uzaqda deyil, lap yaxında, qonşumuzda bu təcrübəyə böyük ehtiyac yaranmışdır.

Ermənistanda gələn ayın əvvəli parlament seçkisi olmalıdır, yəqin xəbəriniz vardır, hazırkı erməni lideri, baş nazir Nikol Paşinyan əlində ürək simvolu təsvir edərək ora-bura dolaşır, hakimiyyətini qorumağa çalışır. Nə qədər əvvəlki neqativ çıxış və hərəkətləri yadımızdan çıxmasa da, hazırda biz azərbaycanlılara ən sərf edən namizəd kimi Paşinyanı görünür. Çünki Azərbaycana qarşı (o cümlədən Türkiyəyə) torpaq, ərazi iddialarından əl çəkib, sülh şəraitində yaşamaq istəyir, dinc qonşuluq, bütün yolların açılması tərəfdarıdır.

Paşinyan yenidən seçilə bilərmi? Reytinqlər, sorğular üzrə hələlik yarışmanın lideri kimi görünür, ancaq xalq arasında nüfuzu da çox yüksək sayılmaz. Üstəlik, Paşinyanın rəqibi olan əski müharibə caniləri - Köçəryan və sairəyə Rusiya, şəxsən onun lideri Putin ciddi dəstək verir. Təsəvvür edin, Putin utanıb-qızarmadan Moskvada Paşinyanın üzünə demişdi ki, istəyirik bizim adamlar, Rusiya vətəndaşları sizin parlamentin üzvü olsun, hətta bəlkə baş naziriniz olsun. İmperializmin buynuzu olmur ki? Açıq işğalçı bəyanatı idi. Hər ölkənin hakimiyyətini yalnız onun vətəndaşları qurmalıdır, əksi işğaldır, müstəmləkədir, zülümdür.

Sözümün canı odur ki, biz 7 iyunda Ermənistanda keçiriləcək parlament seçkilərinə dəstək verməliyik. Bu həm Putinin qanlı barmaqlarını Qafqazın bir hissəsindən kəsər, həm də Ermənistanla sülh prosesimiz davam edər. (Paşinyanın rəqibləri revanşist, qisasçı açıqlamalar verir, Azərbaycana qarşı yenidən müharibə istəyirlər).

Dəstəyimiz isə ilk növbədə MSK sədri Məzahir Pənahovdan ibarət müşahidəçi missiyasını İrəvana göndərmək ola bilər. Məzahir müəllimin təşkilatçı və müşahidəçi olduğu seçkilər həmişə dinc, demokratik, sülhsevər, namuslu xarakteri ilə yadda qalmışdır.

Həm də Məzahir müəllim müşahidə edəndə adətən müxalifət uduzur. Bunu da girişdəki "çaxmaq təcrübəsi" əsasında bilirik.

# Sabah Ermənistanın taleyi Astanada həll olunur

## Qazaxıstanda İrəvanın Avrasiya İqtisadi Birliyində statusu müzakirə ediləcək; Kremldən artan təhdid və "seçim et!" çağırışları fonunda hansı qərar qəbul olunacaq?

**Mayın 28 və 29-da Astanada Ermənistanın Avrasiya İqtisadi Birliyində statusunun müzakirəsi gözlənilir. "Yeni Müsavat" yazır ki, bu barədə Rusiya baş nazirinin müavini Aleksey Overçuk xəbərdarlıq edib. O, tərəfdaşlıq maraqları naminə Ermənistanın Avrasiya və Avropa Birliyi arasında təcili qərar verməli olduğunu bildirib.**



Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə Overçukun açıqlamasına münasibət bildirərək vurğulayıb ki, Ermənistan rəsmi olaraq niyyətini bəyan edib müvafiq ərizə təqdim etməyincə, AİB-dən çıxmaq məsələsi müzakirə edilə bilməz. Seçki kampaniyası səbəbindən Astanaya getməyəcək baş nazir Nikol Paşinyan da (Ermənistanı sammitdə baş nazirin müavini Mher Qriqoryan təmsil edəcək) İrəvanın AİB-də statusu yalnız Ermənistanın özü tərəfindən müzakirə edilə bilər.

"AİB qaydalarına əsasən, yalnız Ermənistan özü AİB-dəki statusunu müzakirə edə bilər - yeni çıxmaq qərarına gələ biləcək üzv ölkə. Başqa prosedur yoxdur", - deyə o bildirib. Eyni zamanda Paşinyan vurğulayıb ki, Ermənistanın təşkilata üzvlüyü ilə bağlı istənilən sual birliyin digər üzvləri ilə müzakirə edilə bilər. O əlavə edib ki, İrəvan bütün mövcud sualları cavablandırmağa hazırdır.

Astanada veriləbiləcək mümkün qərarlar sırasında AİB-in AİB məhkəməsinə müraciət edərək Ermənistanın üzvlüyünün müvəqqəti olaraq dondurulması da var. İddia olunur ki, əgər Ermənistan Rusiyanın razılığı olmadan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) iştirakını dondura bilirsə, onda niyə Ermənistanın AİB-dəki iştirakını dayandırmaq üçün xüsusi razılıq olmalıdır.

Rusiya elitası daxilində Ermənistanla münasibətlərə həmişə fərqli yanaşmalar olub. Bəziləri hesab edirdi ki, İrəvan eyni zamanda Avropa İttifaqı ilə münasibətlərini dərinləşdirsə belə, Ermənistanı qədərindən artıq sıxışdırmamaq lazımdır. Lakin Rusiyada İrəvana tətbiq olunan bəzi iqtisadi sanksiyalar bu qanadın məğlub olduğunu göstərir. AİB çərçivəsində İrəvanın statusunun müzakirəyə çıxarılması ehtimalı artıq texniki yox, strateji məsələ kimi qiymətləndirilir. Bu, Ermənistanın uzun müddətdir davam etdirdiyi balans siyasətinin iflasa uğramağa yaxınlaşdığını göstərən mühüm siqnaldır.

Rusiya tərəfinin ritorikası isə açıq şəkildə sərtləşib. Baş nazirin müavini Aleksey Overçuk tərəfindən səsləndirilən fikirlər faktiki olaraq ultimatum xarakteri daşıyır. Mesaj kifayət qədər aydındır: Ermənistan ya AİB çərçivəsində inteqrasiyanı prioritet saxlamalı, ya da Avropa İttifaqı ilə yaxınlaşmanı seçməlidir. Moskva artıq bu iki istiqamətin paralel aparılmasını qəbul etmir.

Astana görüşündə İrəvanla bağlı konkret qərarlar olmasa belə, Ermənistana təzyiqin artacağı şübhə doğurmur. Bir tərəfdən, Ermənistanın AİB daxilində davranışları kollektiv şəkildə tənqid oluna bilər. Digər tərəfdən, məsələnin AİB məhkəməsi səviyyəsinə çıxarılması və üzvlüyün müvəqqəti dondurulması kimi hüquqi mexanizmlər gündəmə gətirilə bilər. Bundan əlavə, iqtisadi təsir rıçaqları - ticarət, logistika və enerji sahələrində əlavə məhdudiyyətlər daha geniş tətbiq oluna bilər. Astana sammiti Ermənistan üçün sadəcə diplomatik hadisə deyil, strateji yol ayrıcının başlanğıcıdır.

Astana sammitini şərh edən **Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Başirov**un "Yeni Müsavat"a bildirdiyinə görə, iki il əvvəl Paşinyan Moskvada olanda Avrasiya İqtisadi Birliyinin yubiley toplantısında Ermənistana 100 milyon maliyyə dəstəyi ayrılmışdı. Bununla da Rusiyanın Ermənistanı özünə daha da bağlamaq istədiyini deyən siyasi şərhçi hesab edir ki, hesablamalar yanlışdır: "Həmin dövrdə də rəsmi İrəvan avrointeqrasiya kursunu təbliğ edirdi. Amma Moskva Ermənistanın iqtisadi asılılığına arxayınlaşıb 100 milyonluq dəstəklə Paşinyan hökumətinə minnət qoydu. İndi hər nə qədər seçki kampaniyası dövründə Paşinyan Putinlə dost olduğunu bəyan etsə də, Rusiyanın ona qəzəbi göz qabağındadır. Fakt budur ki, rəsmi şəxslər ona hiddətini bildirir, təhqir edir, Peskov və digərləri qazın tarifi ilə Ermənistan hökumətini hədələyir. Hazırda gül, içki, "Cermux" məhsullarının idxalına qadağa qoyulması da göstərir ki, Rusiya sözdən əmələ keçib. O baxımdan, Rusiya rəsmilərinin təhdid xarakterli bəyanatları söz olaraq qalmayıb, Kreml hərəkətə keçib və iqtisadi cəhətdən Paşinyanı sıxışdırır".

**X.Başirovun fikrincə, Rusiya Paşinyana inanmır**: "Hərçənd Nikol deyir ki, heç vaxt Rusiya əleyhinə addımlar atmayacaq, Putinlə isti dostluq əlaqələri var, Mirzoyan bildirir ki, dialoq və dostluq davam edir... Amma əməldə Kreml əks siyasətin şahidi olur. Misal üçün, Paşinyan deyib ki, 2 il ərzində Avropa İttifaqı ilə viza rejimi ləğv olunacaq. Ona qədər isə vaxt qazanmağa və Avrasiya İqtisadi İttifaqında qalmağa, onun ticarət imkanlarından yararlanmaq istəyir. Bu da Rusiya tərəfindən riyakarlıq kimi qəbul olunur. Ona görə də Overçuk və digərləri Paşinyanı tələsdirir ki, elə indi qərar qəbul etsin - ya Avropa Birliyi, ya Avrasiya Birliyi. Moskva yaxşı başa düşür ki, Ermənistan Avrasiya Birliyində vaxt keçirməklə Avropa İttifaqı ilə viza rejiminin ləğvini gözləyir. Eyni zamanda bura Türkiyə ilə quru sərhədlərin açılmasını əlavə etmək olar. Bundan sonra Ermənistanın iqtisadi asılılığı azalacaq və Avrasiya İttifaqından uzaqlaşmaq qərarı verəcək. Eynilə Avropadan tam təhlükəsizlik qarantiyası aldıqda və yekun sülh sənədi imzalandıqda KTMT-ni də de-yure tərk edəcək. Bu mənada Paşinyanın strategiyası göz qabağındadır və Rusiya da qəzəbini gizlədə bilmir. Astana zirvəsində radikal qərar verilməsini gözləmirəm. Rusiya hələ də ümidlidir ki, Paşinyana təzyiq göstərməklə onu yanında saxlaya biləcək".

Qeyd edək ki, Avrasiya İqtisadi Birliyi 29 may 2014-cü ildə Belarus, Qazaxıstan və Rusiya tərəfindən imzalanmış müqavilə ilə qurulan siyasi və iqtisadi təşkilatdır. Ermənistanı da Avrasiya İqtisadi Birliyinə daxil edən müqavilə 9 oktyabr 2014-cü ildə imzalanıb. Birliyin fəaliyyəti rəsmi olaraq 1 yanvar 2015-ci ildə başlayıb.

**Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026

# Bakıya təklif edilən “İbrahim sazişləri” yenə masada

## Tramp müsəlman ölkələri liderlərinə zəng etdi; ABŞ prezidenti İranı da bu sənədə qoşmaq istəyir




**ABŞ Prezidenti Donald Tramp İranın İsraillə münasibətlərin qurulmasını nəzərdə tutan “İbrahim sazişləri”nə qoşulma ehtimalını istisna etməyib. Bu barədə ABŞ prezidentinin məqaləsində deyilir. “İranla münasibətlərimiz daha peşəkar və məhsuldar olmağa başlayır. Bu günə qədər göstərdikləri dəstəyə və əməkdaşlığa görə bütün Yaxın Şərq ölkələrinə təşəkkür etmək istərdim. Bu əməkdaşlıq tarixi "İbrahim sazişləri"nə qoşulmaqla daha da güclənəcək və kim bilir, bəlkə də İran İslam Respublikası da onlara qoşulmaq istəyəcək", - deyə Donald Tramp qeyd edib.**

ABŞ prezidenti bir neçə ərəb və digər müsəlman dövlətlərinin liderləri ilə telefon danışıqları zamanı onların “İbrahim sazişləri”nə qoşulmalarında israr edib. Bu barədə “Axios” mənbəyə istinadən məlumat yayıb. Bildirilir ki, Tramp sənədi Yaxın Şərqdə müharibə bitdikdən sonra imzalamağı təklif edib və ərəb dünyası ilə İsrail arasında münasibətlərin normallaşmasına ümid etdiyini vurğulayıb.

“Axios”un məlumatına görə, sorğunu alanlar arasında İsraillə rəsmi diplomatik münasibətləri olmayan Səudiyyə Ərəbistanı, Qətər və Pakistan, eləcə də Türkiyə, Misir, İordaniya və Bəhreyn var. ABŞ prezidenti Cared Kuşner və Stiv Uitkoffu yaxın həftələrdə müsəlman ölkələrlə müzakirə üçün göndərəcəyini bildirib.

“İbrahim sazişləri” İsrail və ərəb dövlətləri arasında münasibətləri normallaşdırmaq üçün bir razılaşma formatıdır. 2020-2021-ci illərdə BƏƏ, Bəhreyn, Mərakeş və Sudan sənədə qoşulub; noyabr ayında Qazaxıstanın da qoşulduğu elan edilib. Sazişlərin məqsədi dövlətlərarası dialoqu inkişaf etdirmək və müdafiə sənayesi, texnologiya və iqtisadiyyat da daxil olmaqla əməkdaşlığı genişləndirməkdir.

Trampın İranla bağlı iddiası xüsusilə diqqət çəkir və sensasiya kimi görünür. İranın mövcud siyasi kursu nəzərə alındıqda, bu ssenari faktiki olaraq qeyri-real görünür.

Azərbaycanın adı isə son illərdə bu kontekstdə tez-tez hallanır. Çünki Bakı artıq İsraillə strateji tərəfdaşlıq səviyyəsində münasibətlər qurub: enerji, təhlükəsizlik, müdafiə sənayesi və texnologiya sahələrində əməkdaşlıq var. Eyni zamanda Azərbaycan ərəb dünyası ilə də münasibətlərini genişləndirir. Bu səbəbdən Vaşinqton və Tel-Əviv üçün Bakı “İbrahim sazişləri”nin potensial iştirakçılarından biri kimi görünür.

Azərbaycana belə təkliflərin müxtəlif kanallarla edildiyi barədə mediada və ekspert dairələrində uzun müddətdir müzakirələr gedir. Azərbaycan rəsmiləri isə ehtiyatlı mövqe tuturlar. Xarici işlər naziri Ceyhun Bayramov bir müddət əvvəl bildirmişdi ki, “İbrahim sazişləri” əsasən İsraillə münasibəti olmayan ərəb dövlətlərinə aid formatdır. Bu açıqlama Bakının məsafəli və praqmatik yanaşmasının göstəricisi kimi qiymətləndirilmişdi.

İndiki həssas zamanda bu ən düzgün yol sayıla bilərmi? Azərbaycanın “İbrahim sazişləri”nə qoşulmasına ehtiyac varmı? Nə zamansa mümkün ola bilərmi?

**Alyans Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov** “Yeni Müsavat”a bildirdi ki, “İbarhim sazişləri”nin təşəbbüskarı ABŞ və prezident Donald Trampdır. Bu sazişlər İsraillə sülh müqaviləsi və diplomatik münasibətləri olmayan ölkələr arasında imzalanıb. Məqsəd Yaxın Şərqdə gərginliyi azaltmaq və normal münasibətlər yaratmaq idi: “Burada İsrail öhdəlik götürdü ki, İordan çayının Qərb sahilini özünə birləşdirməyəcək. Lakin sonrakı dövrdə məlumdur ki, bu prosesə digər dövlətlər də qoşuldu. O cümlədən Qazaxıstan da "İbrahim sazişi"ni imzaladı və bunu onunla əsaslandırdı ki, Qazaxıstan Qərb dövlətləri ilə ilk növbədə münasibətləri yaxşılaşdırmaq, balanslaşdırılmış siyasət yürütmək və eyni zamanda investisiyaları cəlb etmək məqsədi güdür. Azərbaycan xarici işlər naziri tamamilə düzgün qeyd etdi ki, “İbrahim sazişləri” hansı dövlətlərlə və nə məqsədlə imzalanıb. Söhbət burada sülh müqaviləsinin və diplomatik münasibətlərin yaradılmasından gedir. Ancaq Qazaxıstan burada təbiidir ki, istisna təşkil eləyir. Prezident Tramp dəfələrlə bəyan eləyib ki, digər dövlətlərin, o cümlədən Azərbaycanın İsraillə bu sazişi imzalamasında maraqlıdır. Baxmayaraq ki, Azərbaycanla İsrail arasında münasibətlər kifayət qədər yüksək səviyyədədir. Hələlik belə bir sazişin imzalanmaması təbiidir ki, daha düzgün olardı. Lakin gələcəkdə hadisələrin necə inkişaf edəcəyini indidən söyləmək çox çətindir. Tamamilə mümkündür ki, nə vaxtsa İran da “İbrahim sazişi”nə qoşulsun. Təbii ki, bu, xeyli zaman tələb edir. Eyni zamanda digər ərəb dövlətlərinin də bu sazişə qoşulması ehtimalı qalır. Çünki ABŞ əsas təşəbbüskar kimi maraqlıdır ki, bu proses inkişaf eləsin".

**A.Səmədov hesab edir ki, indiki həssas zamanda Azərbaycanın tutduğu mövqe ən düzgün mövqedir. Bu sazişə indi qoşulmaq və ya yaxın zamanda qoşulmaq təbiidir ki, düzgün deyil:** “Ancaq hadisələr necə inkişaf edəcək, kimlər bu sazişə qoşulacaqlar, Trampdan sonra ABŞ-nin prezidenti kim olacaq və yeni prezident "İbrahim sazişi" məsələsinin üzərində qalacaqmı kimi sualların cavabından bir çox şeylər asılıdır. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan üçün bu gün “İbrahim sazişləri”nə qoşulmaq məsələsi aktual deyil. Azərbaycanın tutduğu mövqe tamamilə düzgündür. Gələcəkdə necə olacaq, bunu bundan sonra baş verəcək hadisələr göstərəcək. Ancaq bir ehtimal söyləməyə ehtiyac olsa deməliyəm çox güman ki, Azərbaycanın bu sazişə qoşulmasına heç gələcəkdə də ehtiyac olmayacaq".

**❑ Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Azərbaycana milyonlar qazandıracaq liman niyə bombalandı?

## ABŞ-İran müharibəsindən bir qədər əvvəl Bakıdan gedən nümayəndə heyəti Bəndər Abbasda olub




**Beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşən Azərbaycan tranzit yükdaşımaların həyata keçirilməsində mühüm rol oynayır. Bu da ölkəmizin mühüm nəqliyyat habına çevrilməsi ilə yanaşı, tranzit sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaradır. Son illər Cənub-Şərqi Asiya ölkələri ilə Rusiya və Şimali Avropanı nəqliyyat baxımından birləşdirən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin funksionallığının artması müşahidə olunur. Məlum olduğu kimi, ilin son ayında Azərbaycan və Rusiya arasında Şimal-Cənub dəhlizi ilə tranzit yük daşımaları, o cümlədən dəmiryol daşımalarının inkişafı üçün əməkdaşlığı nəzərdə tutan saziş imzalanıb. Sazişin məqsədi dəmiryol infrastrukturunun və tranzit daşımalarının inkişafı üzrə əməkdaşlığın şərtlərini müəyyən etmək və Şimal-Cənub dəhlizinin Qərb marşrutunun potensialını artırmaqdır. Sözügedən saziş üzrə əməkdaşlıq sayəsində dəmiryol nəqliyyatına yeni yüklərin cəlbi stimullaşdırılacaq. Eyni zamanda daşıma həcmlərinin artımı və dəmiryol nəqliyyatı infrastrukturunun inkişaf tempi balanslaşdırılacaq.**

Amma İran müharibəsi başladıqdan sonra bu layihənin taleyi müəmmalı olaraq qalır. Atəşkəs imzalanmasa da, ABŞ İranın cənubundakı bir neçə hədəfə, eyni zamanda sözügedən limana zərbə endirib.

“Yeni Müsavat” xəbər verir ki, məlumatı "Fox News" ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) sözçüsü Tim Hokinsə istinadən yayıb: “ABŞ ordusu bu gün İranın cənubunda özünümüdafiə məqsədilə qüvvələrimizi İran qüvvələrinin yaratdığı təhdidlərdən qorumaq üçün zərbələr endirib. Hədəflər arasında raket buraxılış məntəqələri və İran qayıqları da var idi”.

“Fox News” jurnalistinin sözlərinə görə, hücum nəticəsində Bəndər Abbas şəhəri yaxınlığında İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) iki qayığı, eləcə də raket buraxılış məntəqəsi məhv edilib. ABŞ ordusu zərbələrin müdafiə xarakterli olduğunu və İranla mövcud atəşkəsin pozulmadığını elan edib.

Qeyd edək ki, İranın Bəndər-Abbas limanı Azərbaycanın iştirakçı olduğu “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizində mühüm əhəmiyyətə malikdir.

İranın beynəlxalq əhəmiyyətə malik olan iki limanı var. Onlardan biri Fars körfəzindəki Bəndər-Abbas, digəri isə Hind Okeanına çıxışı olan Çabahar limanıdır. Bəndər-Abbas limanı körfəz ölkələrinin, Çabahar limanı isə Cənub-Şərqi Asiya ölkələrinin Avropa ilə ticarət əlaqələrində mühüm rol oynayır. “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi də məhz bu limanlara görə əhəmiyyətlidir. ABŞ zərbə vurduğu bu limanın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, İrana daxil olan yüklər Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu vasitəsilə Rusiyaya, oradan isə Avropaya daşınacaq. “Şimal-Cənub” dəhlizi Avropa və Asiya arasında ən qısa və ən səmərəli tranzit marşrutudur.

Hindistan və Cənub-Şərqi Asiyadan mallar İranın Bəndər-Abbas limanı və Azərbaycan ərazisi vasitəsilə çatdırılacağını nəzərdə tutur. Marşrut üzrə potensial daşıma həcmi ildə 15 milyon tona qədərdir. Bu, Azərbaycan üçün əhəmiyyətli tranzit potensialı yaradır - ildə təxminən 250-300 milyon ABŞ dolları gəlir əldə edə bilər. Bu kontekstdə “Şimal-Cənub” dəhlizinin qərb marşrutu - Rusiyanın Həştərxan və Mahaçqala şəhərləri vasitəsilə daha sonra Azərbaycan ərazisindən Samurdan Astaraya qədər və daha sonra İranın tikintisi davam edən Astara-Rəşt-Qəzvin dəmir yolu xətti ilə - region və ilk növbədə Azərbaycan üçün strateji əhəmiyyət daşıyır.

Təsadüfi deyil ki, ABŞ-İran müharibəsindən bir qədər əvvəl Azərbaycan nümayəndə heyəti İranın Bəndər Abbas limanında olmuşdu. Belə ki, Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana səfəri çərçivəsində Bəndər-Abbas şəhərində yerləşən Şimal-Cənub nəqliyyat dəhlizinin vacib tərkib hissəsi olan limandakı şəraitlə tanış olmuşdu.

**❑ “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026



# Yarım milyardı keçən borc

## Problemli kreditlər niyə artır və bu tendensiya hansı risklər vəd edir?

**Rəsmi statistikaya görə, artıq vaxtı keçmiş kreditlərin məbləği 600 milyon manatı keçib. Dövlət Statistika Komitəsinin açıqladığı məlumata əsasən, ödəmə vaxtı keçmiş kreditlərin məbləği bir il ərzində 28,7 faiz artıb. Bu isə problemli kreditlərin həcminin getdikcə böyüdüyünü və maliyyə sektorunda risklərin artdığını göstərir. Mərkəzi Bankın məlumatına görə, kreditlərin 93,8 faizi banklar, qalan hissəsi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib.**

Ekspertlər bildirirlər ki, bəzi hallarda vətəndaşların eyni anda bir neçə kredit öhdəliyinin olması geri ödəmə imkanlarını çətinləşdirir. Xüsusilə istehlak kreditlərinə marağın artması, gündəlik xərclərin yüksəlməsi və gəlirlərlə xərclər arasında yaranan uyğunsuzluq bir çox insanı maliyyə baxımından çətin vəziyyətə salır. Maliyyə planlamasının düzgün aparılmaması, kreditlərin gəlirə uyğun hesablanmaması və bəzi hallarda vətəndaşların riskləri düzgün qiymətləndirməməsi də problemli kreditlərin artmasının əsas səbəblərindən hesab olunur.

Ekspertlərin fikrincə, bank sektorunda həm kredit, həm də əmanət portfelinin böyüməsi ölkədə maliyyə aktivliyinin artdığını göstərsə də, problemli kreditlərin yüksəlməsi risklərin nəzarətdə saxlanılmasını daha da vacib edir. Çünki problemli kreditlərin artması yalnız vətəndaşların maliyyə vəziyyətinə deyil, ümumilikdə bank sektorunun dayanıqlılığına da təsir göstərən əsas amillərdən biri sayılır. Bu vəziyyət gələcəkdə kredit şərtlərinin sərtləşməsinə, faiz yükünün artmasına və bankların risk siyasətində dəyişikliklərə səbəb ola bilər.

Bəs problemli kreditlər niyə artır və bu tendensiya hansı risklər vəd edir?

Mövzu ilə bağlı **iqtisadçı Eldəniz Əmirov** "Yeni Müsavat"a danışıb. İqtisadçının fikrincə, vaxtı keçmiş kreditlərin həcminin artmasının əsas səbəblərindən biri ümumilikdə kredit portfelinin yüksəlməsidir: "Yəni kredit portfelinin özü də davamlı olaraq artır və artıq 30,6 milyard manata gəlib çatıb. Bunun fonunda mövcud problemli kreditlərin həcmi o qədər də böyük hesab olunmur. Uzun müddətdir ki, problemli kreditlərin xüsusi çəkisi təxminən 1,7 faiz həcmindədir. Yəni kredit portfelinin heç 2 faizinə belə çatmayan problemli kredit həcmi var. Bu gün bu vəziyyət problemdirmi? Düşünmürəm ki, hazırkı mərhələdə bu, ciddi problem sayılsın. Dünya təcrübəsində adətən problemli kreditlərin səviyyəsi 3 faizə qədər olduqda aidiyyəti tənzimləyici qurumlar ciddi narahatlıq keçirmir və hər hansı sərt addımlar atılmır. Problemli kreditlərin payı 3 faizlə 5 faiz arasında olduqda artıq bu müəyyən qədər ilkin həyəcan siqnalı kimi qəbul edilir. Əgər göstərici 5 faizdən yuxarı qalxarsa, yəni kredit portfelində olan hər 100 manatın 5 manatı problemli kreditə çevrilərsə, başqa sözlə, götürülmüş hər 100 manatın 5 manatının qaytarılmasında problem yaranarsa, artıq həmin mərhələdə müəyyən addımların atılmasına ehtiyac duyulur.

Hazırda isə kredit portfelindəki hər 100 manatın təxminən 1,7-1,8 manatının qaytarılması ilə bağlı problem yaşanır. Bu həcmdə artımın başlıca səbəbi isə həm də kredit portfelinin özünün böyüməsidir. Əgər bu proses davamlı olarsa və problemli kreditlərin xüsusi çəkisi getdikcə artarsa, o zaman düşünürəm ki, Mərkəzi Bank tərəfindən müvafiq tədbirlərin görülməsi sürətləndiriləcək".

**Eldəniz Əmirov həmçinin bildirib ki, bu dinamikada ən xoşagəlməz məqamlardan biri isə istehlak kreditlərinin həcminin artmasıdır:** "Eyni zamanda problemli kreditlər arasında da istehlak kreditlərinin xüsusi çəkisinin daha sürətlə yüksəlməsi diqqət çəkir. Bu isə onu göstərir ki, vətəndaşların gündəlik istehlak məqsədilə götürdüyü kreditlərin geri qaytarılmasında risklər artır və gələcəkdə bu istiqamətdə daha ciddi nəzarət mexanizmlərinə ehtiyac yarana bilər".

**İqtisadçı Akif Nəsirli** isə hesab edir ki, problemli kreditlərin artmasının səbəblərindən biri budur ki, manatın alıcılıq qabiliyyəti azalıb, inflyasiya fonunda əhalinin real gəlirləri düşüb, bu da borc ödəmə gücünü zəiflədib: "Həmçinin istehlak kreditləşməsinin sürətli genişlənməsi zamanı bəzi banklar kredit qiymətləndirməsini kifayət qədər sərt aparmayıb, nəticədə ödəmə qabiliyyəti aşağı olan borcalanlara da kredit verilib. Bundan başqa, sahibkarlıq sektorunda, xüsusilə kiçik və orta biznesdə dövriyyə problemləri yaşanır, bu da hüquqi şəxslərin kredit öhdəliklərini yerinə yetirməsini çətinləşdirir. Çıxış yollarına gəldikdə, banklar kredit skorinq (qiymətləndirmə) sistemlərini gücləndirib daha diqqətli qiymətləndirmə aparmalıdır. Yenidənqurma mexanizmləri, yəni problemli borcalanlarla ödəniş cədvəlinin yenidən razılaşdırılması həm bankı, həm də müştərini qoruyur. Mərkəzi Bankın prudensial (pul ehtiyatı tələbi) tənzimləməni sərtləşdirməsi, ehtiyat tələblərini artırması sistemi daha dayanıqlı edər. Əhalinin maliyyə savadlılığının artırılması isə uzunmüddətli həll yoludur, çünki insanlar öz ödəmə gücünü düzgün qiymətləndirməyi öyrənməlidir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Deputatdan qadınlarla bağlı önəmli təklif

## Niyə qadınların orta aylıq əməkhaqqı kişilərin orta əməkhaqqının 69,1 faizinə bərabərdir?

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatından göründüyü kimi, 2025-ci ildə qanunvericilik bazanın möhkəmləndirilməsi və sahədə institusional islahatların dərinləşməsi müşahidə olunub.**

"Yeni Müsavat"ın məlumatına görə, bunu **deputat Vüqar Bayramov** parlamentdəki çıxışında deyib. O qeyd edib ki, bir neçə gün sonra Azərbaycanda Müstəqillik Günü qeyd olunacaq: "Müsəlman dünyasında və Şərqdə qadınlara ilk dəfə seçmək və seçilmək hüququ verilən Azərbaycanda qadınlar hazırda cəmiyyətin müxtəlif sahələrində aktiv fəaliyyət göstərirlər. 1993-cü ilin iyun ayında yenidən hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyevin siyasi iradəsi və fədakarlığı sayəsində Azərbaycan öz dövlətçiliyini qoruya bildi və cəmiyyətin hər bir üzvünün hüquqları bu gün tam olaraq qorunur.

Hörmətli Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan qadınının nüfuzu həm ölkə daxilində, həm də beynəlxalq arenada daha da yüksəlib. Aparılan islahatlar və dəstək tədbirləri beynəlxalq hesabatlarda ölkəmizin mövqeyinin daha da güclənməsinə gətirib çıxarıb. Hazırda ölkədə məşğul əhalinin 2 milyon 414 min nəfərini qadınlar təşkil edir, kişilərin sayı isə 2 milyon 615 min nəfərdir. İşçi qüvvəsində qadınların sayı 2 milyon 571 min nəfərə çatır".



Vüqar Bayramov

**Deputat deyib ki, hazırda qadınların orta aylıq əməkhaqqı kişilərin orta əməkhaqqının 69,1 faizinə bərabərdir**: "Qlobal miqyasda isə bu göstərici 77-80 faiz civarındadır. Qadınların ən çox çalışdığı sahə təhsil sektorudur. Əmək müqaviləsi ilə çalışan 722 min 147 qadından 242 min 801 nəfəri məhz bu sahədə fəaliyyət göstərir ki, bu da muzdlu qadın işçilərin 33,6 faizini təşkil edir. Qadınların üstünlük verdiyi ikinci böyük sektor səhiyyə və sosial xidmətlər sahəsidir. Bu istiqamətdə 116 min 976 qadın çalışır və ümumi payda 16,2 faiz təşkil edir. İlk üçlüyü isə ticarət və nəqliyyat vasitələrinin təmiri sektoru tamamlayır. Bu sahədə 95 min 566 qadının əmək müqaviləsi qeydiyyata alınıb".

**V.Bayramov onu da bildirib ki, qadınların orta aylıq əməkhaqqına görə ən yüksək göstərici mədənçıxarma sənayesində qeydə alınır və bu sahədə qadın işçilərin orta maaşı 2915 manatdır:** "Daha sonra maliyyə və sığorta sektorunda çalışan qadınların orta aylıq əməkhaqqı 1813 manat, informasiya və rabitə sektorunda isə 1353 manat təşkil edir. Təhsil sektorunda çalışan qadınların orta aylıq maaşı isə 731 manatdır.

Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlərinə qadın sahibkarların çıxış imkanlarının artırılması üçün iqtisadiyyatın sahələri üzrə prioritet istiqamətlərlə yanaşı, qadın sahibkarlar üçün kvotaların müəyyənləşdirilməsi məqsədəuyğun olardı. Yaşa görə əmək pensiyası hesablanan zaman qadınların pensiya kapitalına xüsusi əmsalların tətbiq edilməsi və bununla da onların pensiya məbləğlərinin artırılmasına nail olunmasını təklif edərdim. Pensiya yaşı ilə bağlı güzəştlərin kateqoriyasına keyfiyyət meyarlarının əlavə olunması və tək qadınlara daha tez pensiyaya çıxma hüququnun verilməsi məqsədəuyğun olardı. Süni intellekt və rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi müasir dövrdə qadınların iqtisadi dəyər yaratmaq imkanlarının genişləndirilməsi gender siyasətinin əsas istiqamətlərindən biri olaraq qalır".

Yekunda çıxış edən **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova** deputatlara həm xoş sözlərinə, həm də tənqidi yanaşmalarına görə təşəkkürünü bildirib. Qeyd edib ki, onların səsləndirdiyi fikirlər reaksiyasız qalmayacaq. Komitə sədri bildirib ki, deputatlar daha koordinasiyalı işləsə, problemlər daha tez həll olunar.

**Onun sözlərinə görə, deputatlar regionlarda çoxlu iş görə bilərlər:** "Millət vəkilləri regionlarda çoxlu iş görə bilərlər və həqiqətən görürlər də. Amma bunu daha sistemli və koordinasiya olunmuş şəkildə aparsaq, bir tərəfdən qanunların qəbulu prosesinə təsir göstərə bilərik. Bu ictimai rəyin yönləndirilməsini və idarə olunmasını vacib edir".

Bahar Muradova sorğular və qaldırılan məsələlərlə bağlı deputatların hər birinə yazılı cavab göndəriləcəyini deyib.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026

# Brüssel Azərbaycana qarşı səhvini nə vaxt düzəldəcək?

## Bakının şərti qüvvədə qalır

**Milli Məclisin Avronest Parlament Assambleyasında (Avronest) və digər Avropa dialoq platformalarında Azərbaycanın iştirakını yenidən nəzərdən keçirmək qərarına Brüsselin hələ də reaksiyası yoxdur. Çünki Brüssel fərqindədir ki, yaranmış vəziyyət, məsələn, təkcə Avropa Parlamentinin dağıdıcı mövqeyi ilə bağlı deyil, bu həm də illərlə davam edən etimadın azalmasının məntiqi nəticəsidir.**

Yada salaq ki, Bakını qəzəbləndirən son damla Avropa Parlamentinin qərəzli şəkildə “Ermənistanda demokratik davamlılığın dəstəklənməsi” adlı qətnaməsi oldu. Azərbaycan əleyhinə narrativlərlə dolu bu sənəd Avropa institutlarının nəticədə birtərəfli təzyiq alətinə çevrildiyini açıq şəkildə nümayiş etdirdi. “Onilliklər ərzində Bakı Avropaya etibarlı strateji əməkdaşlıq təklif etsə də, bunun müqabilində müntəzəm olaraq siyasi şantaj və daxili işlərinə müdaxilə ilə üzləşib. Bu gün Cənubi Qafqazda güc balansının kəskin şəkildə dəyişdiyi bir vaxtda Avropa elitasının söhbəti ultimatum dilində davam etdirmək cəhdləri qaçılmaz nəticəyə gətirib çıxarıb: Bakı sərt və ədalətli cavab strategiyası seçib”. Ayna.az öz redaksiya məqaləsində belə yazır.

Prezident İlham Əliyev Brüsseldə irəli sürülən ittihamların qərəzliliyini və tamamilə əsassızlığını son olaraq Avropa Siyasi Birliyinin sammitindəki online çıxışında bildirib. Amma Avropa bürokratları sabitliyi təşviq etmək əvəzinə, regional qarşıdurmanın alovuna “kürəklə gedirlər”. Qeyd etmək lazımdır ki,




Avropa Parlamenti rəhbərliyinin bu dağıdıcı xətti Avropa Parlamentinin öz daxilində dərin narazılığa və bölünməyə səbəb olub. May ayında keçirilən plenar dinləmələrin sonunda Avropa Parlamentində başlayan qızğın müzakirələr Brüsselin anti-Azərbaycan siyasətinin iflasını açıq şəkildə nümayiş etdirdi. “Avropa liderləri Bakını öz direktivlərinin itaətkar icraçısına çevirmək ümidi ilə ona siyasi təzyiqi artırmağa çalışdılar. Azərbaycan rəhbərliyinin sərt suveren mövqeyi bu illüziyanı tamamilə darmadağın etdi. Avropadakı real, praqmatik siyasətçilər bunu artıq dərk ediblər və ikitərəfli münasibətlərin gələcəyi indi yalnız Brüsselin müstəmləkə vərdişlərindən birdəfəlik imtina etmək və yeni geosiyasi reallıqları tanımaq qabiliyyətindən asılıdır”, - deyə təhlildə bildirilir.

Bəs Brüssel Azərbaycana qarşı səhvini nə vaxt düzəldəcək? Düzəldəcəyi halda Azərbaycan tərəfinin cavabı necə olacaq?

**Milli Məclisin deputatı Aydın Mirzəzadə** “Yeni Müsavat”a bildirdi ki, istənilən münasibət ikitərəfli olmalıdır, Azərbaycan Avropa Parlamenti ilə hər iki tərəfin maraqlarına cavab verən, ümumi məqsədlərə doğru birgə fəaliyyəti nəzərdə tutan münasibətlərin tərəfdarı olub: “Hətta Azərbaycan bununla bağlı xüsusi olaraq komissiya da yaratmışdı. Amma çox təəssüf ki, biz Avropa Parlamentindən bu münasibəti görmədik. Digər tərəfdən, son dövrlərdə Avropa Parlamentində Azərbaycanın daxili siyasətinə qarışacaq, Azərbaycanda demokratik göstəriciləri şübhə altın alacaq bəyanatlar səsləndirilirdi. Diplomatik kanallarla bu məsələlərə aydınlıq gətirmək istəyəndə isə suverenliyimizə hörmət edəcək cavablar ala bilmirdik. Azərbaycan Avropa Parlamentindən Azərbaycana qarşı olan münasibəti görərək münasibətləri dayandırmaq qərarına gəldi. Deməzdim ki, Azərbaycanın addımına reaksiya olmadı. Ermənistanda keçirilən Avropa Siyasi Birliyinin sammitində Avropa Parlamentinin sədri Azərbaycanın bu addımını, xüsusilə cənab Prezidentin ondan əvvəl bu məsələ ilə bağlı bildirdiyi münasibətə protokol xatirinə bir cavab verdi. Dünya mətbuatı həm Azərbaycan Prezidentinin, həm Avropa Parlamenti sədrinin cavablarını yaydı. Yəni dünya Azərbaycanın öz hüquqlarını qoruduğunun şahidi oldu. Dünya Azərbaycanın kimlərinsə onun daxili işlərinə qarışacağı, hər addımına göstərişi xarici paytaxtlardan alacağı variantına heç vaxt razılaşmayacağını gördü”.

**Deputat vurğuladı ki, bundan sonra da həm digər dövlətlərlə, həm beynəlxalq təşkilatlarla münasibətlərimiz belə olacaq:** “Əgər Avropa Parlamentindən Azərbaycana qarşı konstruktiv addımlar atılarsa, münasibətlər bərpa edilə bilər. Bu addımları nə zaman atsalar, biz də o zaman münasibətlərimizin bərpası məsələsinə baxarıq. Bundan sonra da biz bir tərəfdən hüquqlarımızın qorunmasında, digər tərəfdən xarici partnyorlarla yaxşı olmasında maraqlı olacağımızı göstəririk”.

**❑ Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Kiyevin bombalanması Kremlə qələbə gətirəcəkmi?

## “Lavrovun hədə-qorxusu nə qədər beynəlxalq hüquqa zidd mesajdırsa, Rubionun buna cavabı da bir o qədər riyakardır”

**Rusiya Xarici İşlər Nazirliyi Sergey Lavrovla ABŞ dövlət katibi Marko Rubio arasında telefon danışığı barədə məlumat verib. Məlumatda deyilir ki, Lavrov Putinin tapşırığı ilə Amerika tərəfinə rəsmi olaraq Rusiya ordusunun “Kiyevdə Ukrayna Silahlı Qüvvələrinin ehtiyacları üçün istifadə edilən obyektlərə və müvafiq qərar qəbuletmə mərkəzlərinə sistemli və ardıcıl zərbələr endirməyə başladığı” barədə məlumat çatdırıb. Yəni Kreml ABŞ-nin Kiyevi kütləvi şəkildə bombalayacağı ilə hədələyib.**

Xatırladaq ki, raketlərin biri Kiyevdəki Azərbaycan səfirliyinin yaxınlığına düşüb və səfirlik binasına növbəti dəfə ziyan vurub...

Azpolitika.info-nun bununla bağlı şərhində deyilir: “Lavrovun Putinin adından çatdırdığı hədə-qorxu nə qədər beynəlxalq hüquqa zidd mesajdırsa, Rubionun buna cavabı da bir o qədər riyakar, aciz və ABŞ kimi dünya lideri üçün alçaldıcıdır. ABŞ dövlət katibi 24 mayda Rusiyanın Kiyevə kütləvi hücumunu şərh edərkən faktiki olaraq işğalçı tərəflə işğala məruz



qalanı eyniləşdirib. Rubio deyib: "Hər dəfə bu və ya digər tərəfdən kütləvi hücumları gördükdə, bu, bizə İkinci Dünya müharibəsindən daha uzun sürən bu dəhşətli müharibənin bitməli olduğunu göstərir. ABŞ bu müharibənin sona çatması üçün əlindən gələni etməyə hazırdır və ümid edirəm ki, nə vaxtsa bu fürsət yaranacaq".

Rubio, üstəlik, Lavrovun hədə mesajını Donald Trampa çatdırdığını da deyib və əlavə edib ki, Lavrov onu Kiyevdəki diplomatik nümayəndəlikləri gözləyən təhlükə barədə də məlumatlandırıb. ABŞ kimi özünü supergüc və lider sayan ölkənin dövlət katibi isə sakitcə bütün bu təhdidləri dinləyib. Ortada nə etiraz, nə çəkindirmə, nə də Rusiyadan hansısa bir tələb var. Sanki belə də olmalıdır. Sonda isə Rubio əlavə edib ki, “hazırda Ukrayna ilə ABŞ arasında heç bir aktiv və ya planlaşdırılmış danışıqlar yoxdur”. Yəni sanki danışıqlar aparılmalı və müharibəni dayandırmalı olan tərəf Rusiya yox, Ukraynadır..."

**Sayt yazır ki, Kreml ukraynalılarla yanaşı, Trampı da qorxudur:** “Kiyev zatən bombardmanlara adət edib. Ancaq indi paytaxtın daha da şiddətli və mütəmadi bombalanması əhalini fövqəladə səviyyədə təşvişə salmağa hesablanıb. Bu, həm də Trampın xüsusilə aralıq seçkinin yaxınlaşdığı bir dövrdə "sülhməramlı" missiyasının uğursuzluğunu göstərəcək. Bu yolla Putin Trampın sonda Zelenskini təslim olmağa məcbur edə biləcəyinə az da olsa ümid edir. Və bu, cəbhədə heç bir uğur qazana bilməyən, dalana dirənən Rusiyanın son şansıdır.

Əks halda, müharibə dayandırılmalıdır. Cəbhədəki vəziyyət dəyişib. Ukrayna nəinki hücumların qarşısını alır, hətta az da olsa ərazi azad etməyi belə bacarır.

Rusiya “Z-kanalları” da etiraf edirlər ki, Rusiya Silahlı Qüvvələrinin döyüş zonasında irəliləmə tempi kəskin şəkildə yavaşlayıb. Dronlar işğalçı qüvvələrə “başını qaldırmağa” imkan vermir. Artıq cəbhədən 80-130 kilometr məsafədəki işğal olunmuş Mariupol, Melitopol kimi vacib şəhərlər, ən əsası isə Rusiyanın əsas hissəsi ilə Krımı birləşdirən yeganə M-14 avtomobil yolu Ukrayna PUA-larının atəş nəzarəti altındadır. Bu yolların atəşə tutulması işğalçı qüvvələrin hərbi logistikasını da ağır vəziyyətə salır".

O da bildirilir ki, ruslar müharibənin uzanmasından narazıdırlar. Hətta qatı müharibə tərəfdarları da artıq savaşın dayandırılmalı olduğunu yazırlar: “Lakin Putin buna hazır deyil. Görünür, Trampın sonradan Putinə "9 may paradını keçirməyə icazə verən" Zelenskiyə təzyiq göstərməsi Rusiya başçısında özünəinam və ümid yaradıb. Digər yandan, Luqanskdakı Starobelskə endirilən zərbə Putinə “amerikalı tərəfdaşlarının” köməyi ilə Ukraynanı şantaj etmək üçün yeni bir şans yaradıb.

Beləliklə, Rusiya paytaxt Kiyevi amansızlıqla bombalamaqla, Ukraynadakı hazırda mümkün olan son silahını işə salıb. Putinin artıq bütün digər hərbi arqumentləri tükənib. Bundan o tərəfə qalan tək şey bütün qitə üçün məlum ağır nəticələri olacaq nüvə bombasıdır. Buna isə o, məlum səbəblərdən qətiyyən hazır deyil. Qalır Kiyevdəki mülki hədəfləri bombalamaqla əhalini Zelenski hakimiyyətinə qarşı qaldırmaq, digər tərəfdən də Trampın ona təzyiqini artırmaq.

Lakin bu zərbələr hələlik yalnız ukraynalıların Moskvaya qarşı hiddətini və nifrətini artırmağa yarayır. Üstəlik, Moskva başda olmaqla, Rusiyanın özünün iri şəhərlərinin vurulmasına əsas verir. Trampın Ukraynaya təzyiqinə gəlincə, indiyə qədər bu təzyiqlərin böyük ölçüdə vəziyyəti dəyişə biləcək səviyyədə nəticəsi olmayıb. Bundan sonra da olub-olmayacağı kifayət qədər mübahisəlidir...

Yaranmış bu vəziyyətin hərbi-siyasi tərəfi ilə yanaşı, dəhşət yaradan mənəvi aspekti də var. Bu da Rusiya cəmiyyətinin Kiyevə endirilən kütləvi zərbələrə münasibətidir. 24 mayda endirilən sonuncu zərbədən sonra sosial medianın Rusiya seqmentində az qala toy-bayramdır. Əhval-ruhiyyə yüksəlib, Kiyevin daha intensiv və ağır formada bombalanmasına çağırışlar kəskin şəkildə çoxalıb. Sorğular da rusların bu bombardmandan “cuşa gəldiyini” göstərir. Əlbəttə ki, Kremlin Ukrayna paytaxtını durmadan bombalayacağına dair xəbərdarlığının meydana çıxmasında rusların bu “məmnunluğunun” da xüsusi payı var".

# Ölkədə qızıl hasilatında şok azalmanın səbəbi

## "AzerGold"un məlumatına görə, qızıl hasilatındakı azalma açıq yataqlarda suxurların fiziki göstəricilərindən asılıdır

**Azərbaycan Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, 2026-cı ilin yanvar-aprel aylarında ölkədə qızıl istehsalı 19,5 faiz azalaraq 826 kiloqram (26 559 unsiya) təşkil edib. Mayın 1-i vəziyyətinə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 30,4 faiz artaraq 84,1 kiloqram olub.**




Hesabat dövrü ərzində gümüş istehsalı 4,9 faiz azalaraq 1 304,8 kiloqram (41 955 unsiya) təşkil edib. Mayın 1-i vəziyyətinə gümüş üzrə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 15,2 faiz azalaraq 491,3 kiloqram qeydə alınıb.

Bu dövrdə mis konsentratının istehsalı 13,4 dəfə artaraq 9013,2 tona çatıb.

2026-cı ilin ilk ayları üzrə açıqlanan bu statistik göstəricilər Azərbaycanda qızıl hasilatında yenidən azalmanın başladığını göstərir. Belə ki, Azərbaycanda qızıl və gümüş hasilatı 2023-2024-cü illərdə kəskin azalmışdı. 2024-cü ildə ölkədə 378,8 ton mis konsentrantı (2023-cü illə müqayisədə 5,6 dəfə az), 3184,9 kq gümüş (14 faiz az), 2663,5 kq qızıl (3,5 faiz az) istehsal olunub. Əlvan və qiymətli metalların istehsalındakı bu azalmanın əsas səbəbi 2023-cü ildə Gədəbəydə ekoloji məsələlərə görə başlanan ictimai etirazlarla bağlı rayonda qızıl və gümüş istehsalı ilə məşğul olan şirkətin fəaliyyətini dayandırmasıdır. Belə ki, Gədəbəydə hasilatla məşğul olan Böyük Britaniyanın Azərbaycandakı şirkəti "Anglo Asian Mining plc"nin rayon ərazisində qızıl hasilatında istifadə olunan zərərli kimyəvi maddələrin tullantılarını toplamaq üçün yeni göl yaratması əhali tərəfindən etirazla qarşılanıb. Kəndlərin sakinləri narazılıqlarını kütləvi etiraz aksiyası ilə bəyan ediblər. Hökumət və dövlət qurumları məsələyə müdaxilə etdikdən sonra ərazidə hasilat müvəqqəti olaraq dayandırılıb. Daha sonra hasilatçı şirkətdən ekoloji zərərin minimuma endirilməsi istiqamətində əlavə təminatlar alınmaqla yeni tullantı yeri yaratmasına icazə verilib. Bundan sonra 2024-cü ilin son iki rübündən "Anglo Asian Mining plc" istehsalı bərpa edib.

Nəticədə ötən il Azərbaycanda qızıl istehsalı 11,3 faiz artaraq 2965,1 kiloqram (təxminən 95 min 330 unsiya) təşkil edib. Dövlət Statistika Komitəsindən "Yeni Müsavat"a verilən məlumata görə, cari il yanvarın 1-i vəziyyətinə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 22,3 faiz azalaraq 43,5 kiloqram olub.

Bu ilin yanvar ayında isə ölkədə 207.8 kq qızıl istehsal edilmişdi. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12.2 faiz artım deməkdir. Lakin ikiaylıq göstəricilərdə azalma qeydə alınmağa başlayıb. Rəsmi statistika yanvar-fevrlada 406,6 kq və ya illik ifadədə 15 faiz az qızıl, 681,4 kq və ya 12,3 faiz az gümüş istehsalını açıqlayıb. Dövlət Statistika Komitəsi bəyan edib ki, birinci rübdə ölkədə qızıl hasilatı daha çox - 19,8 faiz azalmaqla 603,1 kq (təxminən 19 min 390 unsiya), gümüş hasilatı isə 14,4 faiz azalmaqla 972,1 kq (31 min 253,7 unsiya) təşkil edib.

Azərbaycanda qızılın hasilatı və ixracı ilə Böyük Britaniyanın "Anglo Asian Mining PLC" şirkəti və dövlətə məxsus AzərGold QSC məşğuldur.

"Anglo Asian Mining PLC"-nin yaydığı məlumata görə, şirkət 2025-ci ildə qızıl hasilatını 10 min unsiyadan çox artırmaqla 25,061 min unsiyaya çatdırıb. Bundan əlavə, 2025-ci ildə şirkətin gümüş hasilatı 153,333 min unsiya, mis hasilatı isə 7,915 min ton təşkil edib.

"AzerGold" QSC hasilat göstəricilərini deyil, ixrac və satış göstəricilərini açıqlayır. QSC 2025-ci ildə 225,7 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. Bu, 2024-cü illə müqayisədə 58,6 milyon dollar və ya 35,06 faiz çoxdur.

Ötən il ərzində dövlət şirkəti beynəlxalq və yerli bazarlarda ümumilikdə 73,2 min unsiya qızıl və 93,2 min unsiya gümüş satışı həyata keçirdiyini açıqlayıb. Bu satışlardan əldə olunan ümumi gəlir 439,3 milyon manat təşkil edib ki, bu da 2024-cü illə müqayisədə 43 faiz çoxdur.

Şirkətin açıqlamasından aydın olur ki, birinci rübdəki qızıl hasilatının 6062 unsiyası "Anglo Asian Mining PLC" şirkətinin payıdır. Çox maraqlıdır ki, bu şirkət birinci rübdə gümüş hasilatının 41,2 faiz artmaqla 42 min 796 unsiya təşkil etdiyini açıqlayıb. Bu isə rəsmi statistikanın bütün ölkə üzrə açıqladığı həcmdən (31 min 253,7 unsiya) çoxdur. Həmçinin "AzerGold" QSC-dən "Yeni Müsavat"ın sorğusuna verilən cavabda bu ilin yanvar-aprel aylarında 34,437 unsiya və ya 1071,124 kq gümüş istehsal edildiyi bildirilir. Bu, 33,288 unsiya və ya 1035,368 kq istehsalın qeydə alındığı 2025-ci ilin eyni dövründəkindən 3 faiz artım deməkdir.

QSC-nin qızıl hasilatında isə azalma var. Belə ki, 2026-cı ilin 4 ayında bu göstərici 20,106 unsiya və ya 625 kq 354 q təşkil edib. Bu isə ötən ilin 4 ayındakı 25,273 unsiya və ya 786 kq 80 qramdan 20 faiz azdır.

"AzerGold"dan "Yeni Müsavat"a verilən məlumata görə, qızıl hasilatındakı azalma açıq yataqlarda suxurların fiziki göstəricilərindən asılıdır. Suxurların qazıntısı və emalı zamanı qızılla zənginlik fərqli olan laylara çıxılır. Bu isə müəyyən dövrdə daha az xalis qızıl əldə olunmasına səbəb olur. QSC-də əmindirlər ki, ilin sonunadək qarşıya qoyulan hasilat proqnozuna tam əməl olunacaq.

Ötən ilin eyni dövründə ikinci qızıl hasilatçısı "Anglo Asian Mining PLC" 6058 unsiya qızıl hasil edib. Gümüş hasilatı isə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4,7 dəfə artaraq 30,321 min unsiya təşkil edib. Bu dövrdə ölkə üzrə ümumi qızıl hasilatı 75,3 faiz artaraq 24 min 93 unsiya, gümüş hasilatı isə 35,3 faiz artaraq 36 min 520 unsiyaya bərabər olub.

Qızıl qiymətlərinin rekord həddə çatdığı bir zamanda hasilatın azalması, əlbəttə, Azərbaycan üçün gəlir itkisi deməkdir. "Anglo-Asian Mining" şirkətinin açıqladığı məlumata görə, yanvar-mart aylarında qızıl külçələrin satışı bir unsiya üçün orta hesabla 4 728 ABŞ dolları təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2025-ci ilin birinci rübü ərzində bir unsiya üçün orta satış qiyməti 2 843 ABŞ dollarına bərabər olmuşdu.

Məhz qızıl və gümüşün qiymətindəki kəskin artım bu ilin ötən dövründə bu qiymətli metalların satışından gəlirlərin artımını təmin edib. "AzərGold" QSC-nin açıqladığı məlumata görə, 2026-cı ilin birinci rübündə beynəlxalq və yerli bazarlarda 12 min 284 unsiya qızıl və 22 min 53 unsiya gümüş satıb. QSC-nin satış gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 18 faiz artaraq 102,4 milyon manata çatıb.

Ölkənin mədən sənayesində müsbət tendensiya kimi mis hasilatındakı kəskin artımı qeyd etmək olar. Bu metalın istehsalı həm dövlət-özəl tərəfdaşlığı, həm də özəl sektorda sürətlə artır. Bu isə Azərbaycanın alternativ enerji istehsalı sektorunda rolu getdikcə artan mis istehsalında yüksək səviyyəyə nail olması baxımından mühüm əhəmiyyət kəsb edir.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Azərbaycanın Suriyaya satdığı qazdan qazancı



**Bu ilin yanvar-mart aylarında Azərbaycandan Suriya Ərəb Respublikasına 81,558 milyon ABŞ dolları dəyərində 244,207 milyon kubmetr (qaz halında) təbii qaz ixrac edilib.**

Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Qeyd edək ki, 2025-ci il iyulun 12-də Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Azərbaycana işgüzar səfəri çərçivəsində SOCAR-la Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir imzalayıblar.

İmzalanmış sənədə əsasən, təbii qazın nəqli üçün bütün texniki hazırlıqlar tamamlanıb. 2025-ci ilin avqustun 2-dən etibarən isə Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ixracına start verilib. Layihənin ilk mərhələsində Suriyaya ildə 1,2 milyard kubmetr təbii qazın ixracı planlaşdırılır. Qaz Türkiyənin Kilis şəhəri vasitəsilə Hələb və Homsdakı elektrik stansiyalarına çatdırılacaq və elektrik enerjisi istehsalında istifadə olunacaq. Bu proses nəticəsində 1 200-1 300 meqavatlıq elektrik istehsalı gücünə nail olunması nəzərdə tutulur.

Əlavə edək ki, ümumilikdə, 2026-cı ilin yanvar-mart aylarında Azərbaycandan 8 ölkəyə 1,883 milyard ABŞ dolları dəyərində 6,257 milyard kubmetr təbii qaz (qaz halında) ixrac edilib. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 322,4 milyon ABŞ dolları və ya 14,6% az, həcm baxımından isə 357,9 milyon kubmetr və ya 6,1% çoxdur.



# Xaricə gedənlərin əmlakı müsadirə ediləcək

**Rusiyanı tərk edən şəxslərin əmlakı müsadirə oluna bilər.**

Rusiya Dövlət Duması ölkədən gedən vətəndaşların "Rusiya maraqlarına qarşı yönəlmiş" inzibati pozuntulara görə əmlakının həbsinə imkan verən qanun qəbul edib. Qanuna əsasən, ordu haqqında "diskreditasiyaedici məlumatların yayılması", Rusiyaya qarşı sanksiyalara çağırış, nasist simvollarının təbliği, qanunsuz informasiya əldə edilməsi, KİV azadlığından sui-istifadə və ekstremist materialların yayılması kimi hallar pozuntu sayılacaq.

Yeni qaydalara görə, həmin şəxslərin Rusiyadakı əmlakı məhkəmə qərarı ilə müsadirə və ya üzərinə həbs qoyula bilər. Qanunun ölkəni tərk etmiş və xaricdə yaşayan Rusiya vətəndaşlarına da şamil ediləcəyi bildirilir.

Yeni MÜSAVAT
N 20 (8869) 27 may 2026

# Parlamentin yaz sessiyasının son iclasında bu məsələlər müzakirə edildi

## Milli Məclis hakimlərin təyinatı ilə bağlı təqdimatı təsdiqlədi - adlar




**Mayın 26-da Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib. Spiker Sahibə Qafarovanın rəhbərliyi ilə öz işinə başlayan iclasda gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumatı müzakirəyə çıxarılıb.**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova** Milli Məclisin plenar iclasında çıxış edərək məlumatı təqdim edib. Komitə sədri bildirib ki, 2025-ci il Azərbaycanda sosial inkişafın dayanıqlığının gücləndiyi, dövlət siyasətinin daha çox insan kapitalı, ailə institutu və gender bərabərliyi üzrə inteqrasiya olunmuş modelə keçdiyi mühüm bir dövr kimi xarakterizə olunur: "Bu dövrdə əldə olunan nəticələr statistik göstəricilər olmaqla yanaşı, dövlət qurumları arasında koordinasiyanın dərinləşməsi, rəqəmsal idarəetmənin genişlənməsi və vətəndaş cəmiyyəti ilə əməkdaşlığın institusional xarakter alması kimi strateji dəyişikliklərin nəticəsidir". Komitə sədri bildirib ki, gender əsaslı və sosial risk göstəricilərində müşahidə olunan dinamika göstərir ki, dövlətin tətbiq etdiyi profilaktik və preventiv mexanizmlər daha səmərəli nəticə verir: "Bu, özünü müraciətlərin azalması, mühafizə orderlərinin artması, erkən müdaxilə mexanizmlərinin genişlənməsi kimi bir-birini tamamlayan tendensiyalarda göstərir. Bunu müvafiq qurumlara, qaynar xətt xidmətlərinə daxil olan müraciətlər, nikah, doğum, gender əsaslı cinayət və hüquqpozmaların hazırda slaydlarda təqdim olunan statistikası sübut edir. Misal üçün, 18 yaşadək analar və erkən evlilik üzrə göstəricilərin son üç ildə təxminən 50%-ə yaxın azalması xüsusi qeyd olunmalıdır. Bu nəticə yalnız hüquqi tədbirlərin deyil, həm də təhsil sisteminin, yerli icra mexanizmlərinin, ailə institutunun güclənməsinin, ictimai davranış dəyişiminin ümumi sinerjisinin nəticəsidir".

**Deputat Qüdrət Həsənquliyev əvvəlcə spikerə xitabən uğurlu səfərlər və bayramlar münasibətilə təbrik edib:** "Sizi və xalqımızı qarşıdan gələn Qurban bayramı və Müstəqillik Günü münasibətilə təbrik edirəm. Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, mərhum prezident Heydər Əliyev vaxtilə söyləyirdi ki, Azərbaycan xalqının ən böyük tarixi nailiyyəti onun istiqlalıdır. Bizim Dövlət Protokolunun əsas qaydaları haqqında prezident tərəfindən imzalanmış fərmanla dövlət bayramları Gülüstan sarayında qeyd olunmalıdır və prezident də orada çıxış etməlidir. Amma çox təəssüf ki, bizim ən böyük bayramımız dövlət səviyyəsində qeyd olunmur. Nazirlər Kabinetinin tək qadın üzvü kimi hörmətli Bahar xanım istəsə, bu məsələyə də münasibət bildirər. Ümumiyyətlə, Milli Məclisə bu barədə məlumat verilməlidir, izahat verilməlidir ki, niyə bu bayram qeyd olunmur? Hörmətli Bahar xanım bizim deputat həmkarımız olub, kifayət qədər hazırlıqlı siyasətçidir və mən hesab edirəm ki, bir çox suallara aydınlıq gətirilməlidir". Q.Həsənquliyev təəssüflə bildirib ki, son illər biz hamımız bunu müşahidə edirik ki, evliliklərin sayı azalır, əvəzində boşanmalar artır, uşaq doğumunun sayı azalır, selektiv abortların sayı artır: "Səhv etmirəmsə, hörmətli Əli Əhmədov da hökumətin hesabatında çıxış etdi, bu məsələyə toxundu. Bunların səbəbləri dövlət komitəsində araşdırılıbmı? Bununla bağlı hökumətə, ölkə Prezidentinə hansısa təkliflər göndərilirmi?"

Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumat geniş müzakirə olunduqdan sonra qəbul edilib. Yekunda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deputatlara həm xoş sözlərinə, həm də tənqidi yanaşmalarına görə təşəkkürünü bildirib. Qeyd edib ki, onların səsləndirdiyi fikirlər reaksiyasız qalmayacaq. Komitə sədri bildirib ki, deputatlar daha koordinasiyalı işləsə, problemlər daha tez həll olunar.

**Onun sözlərinə görə, deputatlar regionlarda çoxlu iş görə bilərlər:** "Millət vəkilləri regionlarda çoxlu iş görə bilərlər və həqiqətən görürlər də. Amma bunu daha sistemli və koordinasiya olunmuş şəkildə aparsaq, bir tərəfdən qanunların qəbulu prosesinə təsir göstərə bilərik. Bu, ictimai rəyin yönləndirilməsini və idarə olunmasını vacib edir". B.Muradova sorğular və qaldırılan məsələlərlə bağlı deputatların hər birinə yazılı cavab göndəriləcəyini deyib.

Azərbaycanda bir sıra hakimlərin vəzifələri dəyişdirilərək Ali Məhkəmə və apelyasiya məhkəmələrinə yeni təyinatlar müzakirə edilib. Məsələ Milli Məclisin mayın 26-da keçirilən plenar iclasında müzakirəyə çıxarılıb. Müzakirəyə təqdim olunan sənədə əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Sənan Məmməd oğlu Qarayevin vəzifəsindən azad edilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin olunması, Xankəndi Şəhər Məhkəməsinin sədri İlkin Qismət oğlu Abdullayevin isə vəzifəsi dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi təklif olunur. Bununla yanaşı, Aytən Heydər qızı Əliyeva, Telman Qulaməli oğlu Hüseynov, Elnur Aləm oğlu Nuriyev, Fərid Sabir oğlu İsmayılzadə, Elşən Uğur oğlu Abdullayev, Elməddin Mirpaşa oğlu Hüseynov və Rəna Nazim qızı Qafarovanın vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilməsi nəzərdə tutulur. Sənədə əsasən, Vahid Nəriman oğlu Sadıqovun vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi, Nural Turab oğlu Əliyevin isə vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad olunması təklif edilir. Həmçinin Bilal Mahir oğlu Məmmədovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi, Etibar Mustafa oğlu Mustafayev və Anar Əlifğa oğlu Əsgərovun Şəki Apellyasiya Məhkəməsinin hakimləri, Fəxri Hümmət oğlu Hacızadə və Nicat Rauf oğlu Ağabəyovun isə Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin olunmaları nəzərdə tutulur.

Deputatlar yekdilliklə yeni təyinatlara səs verib.

## Deputatlar Prezidenti və Birinci vitse-prezidenti təbrik etdilər

Digər qanun layihələrinin müzakirəsindən sonra **Milli Məclisin sədri Sahibə Qafarova** parlamentin yaz sessiyasının yekun nitqi ilə çıxış edib. Bildirib ki, yaz sessiyası ərzində parlamentin 15 iclası keçirilib, 57 qanun və 19 qərar qəbul edilib: "Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin hüquqi bazası daha da möhkəmləndirilib və təkmilləşdirilib". **Sədr deyib ki, sessiyada Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər görülüb:** "Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, insan alverinə qarşı mübarizə üzrə milli koordinatorun, insan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun, bu gün isə gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları da dinlənilib. Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilib. Və qeyd edim ki, sessiya ərzində parlamentdə on minə qədər vətəndaş müraciətinə baxılıb".

Spiker deyib, xalqımız 27 mayda İslam aləminin ən müqəddəs bayramlarından biri olan Qurban bayramını, mayın 28-də isə Müstəqillik Gününü qeyd edəcək: "108 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xalqımızın zəngin dövlətçilik potensialının yeni tarixi şəraitdə təzahür etməsi idi. Demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar təkcə ölkəmizin deyil, bütün müsəlman Şərqinin siyasi təkamülündə mühüm rol oynayıb. Bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi Azərbaycan xalqının demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərirdi. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ənənələrdən bəhrələnərək 1991-ci ildə dövlət müstəqilliyini bərpa edib. Təəssüf ki, o vaxtkı ölkə rəhbərliyinin qeyri-peşəkarlığı nəticəsində Azərbaycan çıxılmaz problemlər məngənəsinə düşmüşdü. Müstəqil dövlətçiliyin itirilməsi təhlükəsi tam real idi. Məhz belə bir şəraitdə, 1993-cü ilin iyun ayında Ulu öndər Heydər Əliyev xalqın tələbi ilə ali dövlət hakimiyyətinə qayıtdı. Onun misilsiz idarəçilik məharəti, əzmkarlığı və yorulmaz səyləri nəticəsində dövlətin qarşısında dayanan ağır problemlər həll edildi. Azərbaycan sistemli böhrandan çıxıb ardıcıl inkişaf yoluna qədəm qoydu. Ümummilli liderimizin inkişaf strategiyası Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Onun həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı gələcəyə inamla baxan, geniş bir bölgədə söz sahibi olan qüdrətli dövlətə çevirib. Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və bir günlük antiterror əməliyyatında əldə edilən möhtəşəm qələbələr nəticəsində erməni işğalına son qoyulub, dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açılıb, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsi dəyişib. Əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq, dünyanın sayılıb-seçilən ölkələri sırasında yerini daha da möhkəmləndirəcək. Hörmətli həmkarlar, təklif edirəm, Qurban bayramı və Müstəqillik Günü münasibətilə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və gələcəyi naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq". Deputatlar alqışlarla təbriklərə qatıldıqlarını nümayiş etdirdilər". **S.Qafarova deputatları və media təmsilçilərini də təbrik edib:** "Qurban Bayramı və Müstəqillik Günü münasibəti ilə mən sizin hər birinizi səmimi-qəlbdən təbrik edirəm! Mən hamınıza can sağlığı, firavanlıq və xoşbəxtlik arzulayıram. Eyni zamanda bizi həmişə müşayiət edən media nümayəndələrini də ürəkdən təbrik edirəm. Beləliklə, hörmətli həmkarlar, Milli Məclis yaz sessiyasını uğurla başa çatdırır. Bununla əlaqədar mən sizə səmərəli iş üçün təşəkkür edirəm. Milli Məclisin yaz sessiyasını bağlı elan edirəm".

Dövlət Himninin oxunması ilə sessiyaya yekun vurulub.

Milli Məclisin növbədənkənar sessiyası çağırıldığı üçün deputatlar qarşıdakı həftələrdə də işləyəcəklər.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"



# Qarabağa köç karvanları - Ağdam, Şuşa, Cəbrayıl...

## Bu möhtəşəm quruculuq və bərpa işləri Azərbaycanın iqtisadi gücünün, siyasi iradəsinin və milli birliyinin parlaq göstəricisidir

**Qarabağa "Böyük Qayıdış" Azərbaycan tarixinin ən möhtəşəm və qürurverici səhifələrindən birini təşkil edir. Bu müqəddəs proses günbəgün daha böyük vüsət almaqdadır. Ard-arda köç karvanları doğma yurdlara doğru yola salınır. İllərlə həsrətində olduğumuz o müqəddəs torpaqlar bu gün yenidən öz sahiblərini qucaqlayır. Hər bir köç karvanı təkcə insanların deyil, bütöv bir xalqın ümidlərinin, sevincinin və milli ruhunun təntənəsidir.**

"Böyük Qayıdış" prosesi çərçivəsində hələ ki son dayanacaq Ağdam şəhəri, Şuşanın Böyük Qaladərəsi və Cəbrayıl rayonunun Şükürbəyli kəndləri olub.

Böyük Qaladərəsinə 14 ailə olmaqla 64 nəfər köçürülüb. Şükürbəyliyə isə ümumilikdə 119 ailə - 535 sakin yola salınıb.

Xatırladaq ki, bu günədək Şükürbəyli kəndinə respublikamızın müxtəlif bölgələrində məskunlaşmış 390 ailə, 1692 rayon sakini köçürülüb.

**Böyük Qaladərəsi kənd sakini İsmayıl Abbasov 34 ildən sonra doğma kəndlərinə köçdüklərini söyləyib:** "Bu köçün davamlı olacağına inanıram. Allah şəhidlərimizə rəhmət eləsin. Onların sayəsində bu gün 34 ildən sonra doğma kəndimizə köçürük".

Ağdama isə 110 ailə-417 nəfər köçürülüb.

Qədim və zəngin tarixə malik Xocavənd rayonunun işğaldan azad edilməsindən sonra ərazidə inkişaf dövrü başlayıb. Hazırda rayonda genişmiqyaslı bərpa, tikinti və abadlıq işləri sürətlə davam etdirilir. Paralel olaraq, tikinti-bərpa prosesi tamamlanan yaşayış sahələrinə keçmiş məcburi köçkünlərin mərhələli, eyni zamanda sistemli şəkildə qayıdışı həyata keçirilir. Yeni və dayanıqlı infrastrukturun qurulması, sosial obyektlərin bərpası və sakinlərin yaşayış şəraitinin maksimum dərəcədə yaxşılaşdırılması bölgədə sosial-iqtisadi həyatın yenidən canlanmasına güclü təkan verir.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Təranə Quliyeva bölgədəki mövcud tikinti dinamikası ilə bağlı danışarkən bildirib ki, Xocavənd şəhərində bərpa işləri 2025-ci ilin oktyabr ayından başlayıb və ümumilikdə, 1188 evin bərpası nəzərdə tutulub. Onlardan 728 evin bərpası artıq başa çatıb, 460 evin bərpası isə davam edir.

Şöbə müdirinin sözlərinə görə, Xocavəndə ilk köç bu il fevralın 20-də gerçəkləşib. Şəhərdə gələcəyimiz olan uşaqların keyfiyyətli təhsil alması üçün 640 yerlik tam orta məktəb binası Elm və Təhsil Nazirliyi tərəfindən bərpa edilib və bu il aprelin 21-də fəaliyyətə başlayıb. Həmçinin 240 yerlik uşaq bağçasının bərpası da planlaşdırılır və ilkin mərhələdə 40 yerlik bölmənin istifadəyə verilməsi nəzərdə tutulur.

Doğma şəhərinə qovuşan **Xocavənd sakini Yeganə Balakişiyeva** uzun illərin həsrətinin bitdiyini, insanların öz evlərində dinc və firavan yaşamağa başladıqlarını böyük qürur hissi ilə ifadə edib: "Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarix yazdı və torpaqlarımız azad edildi. İndi Qarabağda həyat yenidən canlanır. Biz də Xocavənd şəhərində məskunlaşmışıq. Mən şəhid bacısıyam və bu torpaqlar bizlər üçün çox müqəddəsdir. Burada bizə gözəl şərait yaradılıb, yollar abadlaşdırılıb, infrastruktur bərpa edilib".

Bu arada xüsusi olaraq qeyd etmək yerinə düşər ki, bu möhtəşəm quruculuq və bərpa işləri Azərbaycanın iqtisadi gücünün, siyasi iradəsinin və milli birliyinin parlaq göstəricisidir. Dövlətimiz heç bir kənar dəstəyə arxalanmadan, yalnız öz maliyyə imkanları hesabına Qarabağı yenidən qurur, abadlaşdırır, dünyanın ən gözəl bölgələrindən birinə çevirmək üçün gecə-gündüz çalışır. Dağıdılmış şəhərlər yenidən ucalır, yollar çəkilir, məktəblər, xəstəxanalar, yaşayış kompleksləri tikilir, kəndlərə yeni nəfəs verilir. Bu, müasir Azərbaycan dövlətinin gücünün və xalqımızın əzminin canlı təcəssümüdür.

Doğma torpaqlarına qayıdan məcburi köçkünlərin gözlərindəki sevinc, qəlblərindəki qürur hər kəsə böyük duyğular yaşadır. Onlar illərlə qoruyub saxladıqları yurd sevgisini indi gerçəyə çevirirlər. Hər addımda keçmişin ağrıları ilə yanaşı, gələcəyin böyük ümidləri də hiss olunur. Hələ qayıdış növbəsini gözləyən insanlar isə böyük intizar və inam içində o müqəddəs günü səbirsizliklə gözləyirlər. Çünki artıq hər kəs əmindir ki, Qarabağ dirçəlir, Qarabağ yenidən qurulur və Azərbaycan bu tarixi missiyanı böyük uğurla həyata keçirir.

"Böyük Qayıdış", sadəcə, bir köç prosesi deyil. Bu, milli qürurun, zəfərin, dövlət qüdrətinin və xalq birliyinin əbədi dastanıdır. Qarabağda yüksələn hər bina, yanan hər işıq, qayıdan hər ailə Azərbaycanın sarsılmaz iradəsinin və parlaq gələcəyinin simvoludur. Bu yol böyük zəfərlə başlanıb və eyni uğurla davam edəcək. Qarabağ əbədi olaraq Azərbaycanın ürəyi kimi yaşayacaq, inkişaf edəcək və gələcək nəsillərə qürur mənbəyi olacaq.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI**

# Beş günlük bayram başladı - DYP-dən xəbərdarlıq

## Qurban bayramı ilə əlaqədar rayonlara turist axını bölgələrdə qiymət artımına səbəb olub - bəs hava necə olacaq?

**Bu gündən Azərbaycanda ardıcıl 5 gün iş olmayacaq. Belə ki, 27, 28 may tarixləri Qurban bayramı, 28 may Müstəqillik Günüdür.**

Qurban bayramı və Müstəqillik günləri üst-üstə düşdüyündən, Əmək Məcəlləsinə əsasən, mayın 29-u da qeyri-iş günü olacaq. Bununla da, 27, 28, 29 may, həmçinin həftəsonu - 30, 31 may tarixləri qeyri-iş günüdür. İyunun 1-i Azərbaycanda növbəti iş günü olacaq.

Qurban bayramı ilə əlaqədar rayonlara axın edən turistlərin günlük kirayə evlərə üstünlük verməsi bölgələrdə qiymət artımına səbəb olub.

Xəzər TV xəbər verir ki, İsmayıllıda kirayə evlərə tələbat xüsusilə yüksəkdir. Yerli sahibkarların sözlərinə görə, artıq yerlərin 90%-i rezerv olunub. Qiymətlərdə ötən illə müqayisədə 50-60 manatlıq fərq müşahidə edilir. Evlərin şəraitindən (həyətyanı sahə, hovuz və s.) asılı olaraq qiymətlərdə 20-30 manatlıq dəyişikliklər qeydə alınır.

Lənkəranda isə vəziyyət fərqlidir. Burada qiymətlər evlərin şəraitinə görə dəyişir:

Sadə evlər: 50-60 manat;
Bağ evləri: 80-100 manat;
Hovuzlu evlər: 100-300 manat aralığında dəyişir.

Zaqatalada isə qiymətlər nisbətən daha münasibdir. Burada 30 manatdan başlayaraq 80 manata qədər müxtəlif büdcəyə uyğun evlər tapmaq mümkündür. Ərazidəki hotellərdə də bayram hazırlıqları görülür və qiymətlər 40-100 manat arasında dəyişir.

Turizm sektorunda çalışanların verdiyi məlumata görə, bayram günləri yaxınlaşdıqca rezervasiya üçün boş yerlərin sayı sürətlə azalır.

Bayramı günlərində havanın necə olacağı da açıqlanıb. Milli Hidrometeorologiya Xidmətinin ilkin proqnozlarına əsasən, 27-28-29-30 və 31 may tarixlərində ölkə ərazisində hava şəraitinin əsasən sabit və mülayim keçəcəyi gözlənilir.

Bəzi bölgələrdə qısamüddətli yağış ehtimalı olsa da, əksər rayonlarda günəşli hava üstünlük təşkil edəcək.

Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. Temperaturun gündüz saatlarında 24-29 dərəcə isti olacağı proqnozlaşdırılır.



Regionlarda isə hava daha isti keçəcək. Aran rayonlarında temperaturun bəzi yerlərdə 30-33 dərəcəyə qədər yüksələcəyi gözlənilir. Dağlıq və dağətəyi ərazilərdə isə axşam saatlarında qısamüddətli yağış və şimşək ehtimalı var.

Meteoroloqlar vətəndaşlara bayram günlərində açıq havada istirahət planlaşdırarkən günün isti saatlarında günəşdən qorunmağı tövsiyə edir.

Bu arada Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) sürücülərə müraciət edib.

**Müraciətdə deyilir:** "Baş Dövlət Yol Polisi İdarəsi qarşıdan gələn Qurban bayramı və Müstəqillik Günü münasibətilə bütün vətəndaşları səmimi qəlbdən təbrik edir, hər birinizə xoş, təhlükəsiz və sevincli bayram günləri arzulayır. Bayram günlərində ölkə ərazisində hərəkət intensivliyinin artacağını nəzərə alaraq, bütün hərəkət iştirakçılarını daha diqqətli və məsuliyyətli olmağa çağırırıq. Paytaxtı tərk edərək bölgələrə üz tutan sürücülərdən xahiş olunur ki, nəqliyyat vasitələrini texniki cəhətdən saz vəziyyətdə idarə etsin, sürət həddinə ciddi riayət etsin və yorğun halda sükan arxasına əyləşməsinlər. Uzun məsafəli səfərlər zamanı diqqətin azalması ağır nəticələrə səbəb ola bilər.

Sürücülər ötmə və manevr qaydalarına əməl etməli, təhlükəli davranışlardan çəkinməli və digər hərəkət iştirakçılarına qarşı diqqətli olmalıdırlar. Piyadalar isə yolu yalnız müəyyən olunmuş yerlərdən keçməli, xüsusilə intensiv hərəkət olan yollarda öz həyatlarını riskə atmamalıdırlar. Unutmayaq ki, təhlükəsiz yol - ən gözəl bayram hədiyyəsidir. Bayram sevincinizi qorumaq isə sizin düzgün seçimlərinizdən asılıdır".

Yeri gəlmişkən, Fövqəladə Hallar Nazirliyi (FHN) Qurban bayramı və Müstəqillik Günü ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq.

Bu barədə FHN-dən məlumat verilib.

Bildirilib ki, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun bununla bağlı imzaladığı əmrə əsasən, Qurban bayramı və 28 May - Müstəqillik Günü ilə əlaqədar qeyri-iş günlərində baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılması işinin təşkil edilməsi, vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin daha etibarlı təmin olunması məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 20 (8869) 27 may 2026

# Evlilikdə böhran nə zaman başlayır?

## Ən çox boşanmalar Qarabağdadır

**Milli Məclis "Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumatı" qəbul edib.**

Sözügedən məsələ parlamentin son plenar iclasında müzakirəyə çıxarılıb. Hesabatı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova təqdim edib.

Qeyd olunub ki, Azərbaycanda qadağan olunana qədər 2025-ci il iyulun 1-dək 1 412 qohum nikahı faktı qeydə alınıb. Hesabata əsasən, bu rəqəm 2024-cü ildə 2 058 olub.

Keçən il üçün qohum nikahı ən çox Bakıda (360) qeydə alınıb. Bundan başqa, 2025-ci il üzrə ölkədə 48 546 nikaha daxilolma, 20 675 boşanma halları qeydə alınıb. 2024-cü illə müqayisədə 2025-ci ildə nikahların sayı azalaraq hər min nəfərə 4.9-dan 4.7-yə, boşanmaların sayı isə 2.1-dən 2-yə düşüb. Həmçinin 2022-25-ci illərdə ildən-ilə nikahların sayı azalıb. 2023-25-ci illərdə boşanmaların sayında ildən-ilə azalma müşahidə olunur.

Eyni zamanda Azərbaycanın 14 iqtisadi rayonu üzrə 2025-ci ildə rəsmi qeydə alınmış ən çox boşanma halları Qarabağ (1 590), Abşeron-Xızı (1 504), Mərkəzi Aran (1 442), Gəncə-Daşkəsən (1 374) iqtisadi rayonları üzrə qeydə alınıb.

Ən az boşanma halları Dağlıq Şirvan (577), Şərqi Zəngəzur (711) iqtisadi rayonlarında qeydə alınıb.

Həmçinin keçən il Azərbaycanda aliment ödəməkdən yayınan 2 344 valideyn inzibati qaydada həbs olunub.



Hesabata əsasən, onlardan 3 083 (2024-cü ildə 2 987) protokol üzrə məhkəmələr tərəfindən müvafiq inzibati tənbeh tədbirləri tətbiq olunub, 2 344 (2024-cü ildə 2 318) nəfər inzibati qaydada həbs olunub.

Bundan başqa, keçən il cinayət məsuliyyətinə cəlbetmə haqqında 286 (2024-cü ildə 174) təqdimat verilib, onlardan 235 (2024-cü ildə 164) təqdimat əsasında cinayət işi başlanılıb, üç (2024-cü ildə üç) təqdimat üzrə cinayət işinin başlanması rədd edilib, 48 (2024-cü ildə yeddi) təqdimat növbəti hesabat dövrünə qalıq keçib.

2025-ci il ərzində məhkəmələrdə ailə mübahisələri ilə bağlı mülki işlərin sayı isə 46 219 olub.

Hesabatda qeyd olunub ki, Daxili İşlər Nazirliyinin həyata keçirdiyi qabaqlayıcı tədbirlərlə keçən il üçün 90 erkən evliliyə cəhd faktı müəyyən edilərək 28 nəfər cinayət məsuliyyətinə cəlb olunub. Bildirilir ki, beş valideyn və 41 aidiyyəti şəxs barədə inzibati tənbeh tətbiq edilib, daha 57 şəxslə profilaktik iş aparılıb.

Bildirilir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə keçən il ərzində məişət zorakılığının qarşısının alınması ilə bağlı 558 müraciət daxil olub.

Müraciət əsasında zorakılığa məruz qalanların 83-ü kişi, 539-u qadın, 515-i uşaq, zorakılıq törədənlərin isə 549-u kişi, onlardan 228 ər, 108 keçmiş ər, 27-si qeyri-rəsmi münasibətlərdə olduğu şəxs olub.

Evlilikdə anlaşılmazlıqlar cütlüklər arasında tez-tez rastlanan problemdir. Bu, gündəlik həyatın tələbləri və fərqli gözləntilərdən qaynaqlana bilər. Müşahidələr göstərir ki, qadınlar daha çox narazılıq edir və şikayətini bildirirlər. Belə vəziyyətlər ailədə emosional gərginliyə səbəb olur və nəticədə münasibətlərin zədələnməsinə gətirib çıxarır.

Bəs evlilikdə anlaşılmazlıq nə vaxt baş verir?

Bu barədə Bizimyol.info xəbər portalına danışan **psixoloq Vüsalə Əmiraslanova** bildirib ki, cütlüklərin həm maddi, həm mənəvi tərəfdən ortaq maraqları olmalıdır: "Evlilik öncəsi hər bir cütlük özləri arasında olan münasibəti evliliyə qədər həll etməyi bacarmalıdırlar.

Təəssüflər olsun ki, Azərbaycan menatalitetin çox yayğın və məşhur olduğu ölkədir. Buna görə də bizdə cütlük münasibətləri uzun sürmür. Demək olar ki, cütlük münasibətə girəndən dərhal sonra nişan mərasimi və evlilik prosesi baş verir. Ona görə də cütlüklər bir-birilərinin mənfi və müsbət tərəflərini görə bilmirlər.

Düşünürəm ki, həm qadın, həm kişi xaraktercə uyğun olmalıdır. Həmçinin də onların həm maddi, həm mənəvi tərəfdən ortaq maraqları olmalıdır. Bu olmadığı halda sonradan bir-biri ilə anlaşılmazlığı daha çox olur. Bəzən erkən ailə qurmaq məsələsi ortaya çıxır ki, bu da oğlanların dostlarından ayrı qalmaq istəməməsi, onlarla çox vaxt keçirməsi və nəticədə yoldaşlarına az vaxt ayırması ilə nəticələnir.

Qızlar da bəzən erkən nikaha girirlər. Onların da özlərinə aid dostluq münasibəti olmur - təhsil ala bilmirlər, istədikləri kimi universitetə gedə bilmirlər. Bu da onların həyatlarında mənfi izlər buraxır".

**Vüsalə Əmiraslanova həmçinin vurğulayıb:** "Düşünürəm ki, burada əsas anlaşılmama məsələsi cütlüklərin öz aralarında evlilik öncəsinə qədər problemlərin həll olmamasıdır. Eyni zamanda verilən vədləri həyata keçirməyən cütlüklərdə bu daha çox baş verir.

Həmçinin kənardan ailənin, dostların müdaxiləsi də olur. Bu da yeni qurulmuş ailədə böyük bir problemlərə gətirib çıxarır".

**Vüsalə Əmiraslanova əlavə edib:** "Ümumiyyətlə, evliliyin ilk 3 ili, sonrakı 7, 9, 13 və 18-ci illəri daha riskli illər və böhran dövrləri sayılır.

Əgər bu dövrdə bir-birilərini düzgün anlamağa çalışar, kompromisə getməyi bacararlarsa, o zaman artıq problemləri, narazılıqları həll olmuş olur. Qadınların ehtiyacı diqqətdirsə, kişilərin də ehtiyacı diqqətdir. Hər iki tərəf alma-vermə balansını qoruduqda cütlüklərdə narazılıqlar yaranmır. Ailələr də xoşbəxt olur".

❑ **"Yeni Müsavat"**

# Hökumətdən hazırlıq: 100 mindən çox ev...

## İqtisadçı deyir ki, bütün sənədsiz evlərin qısa müddətdə tam sənədləşdirilməsi real görünmür, çünki...

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun sözlərinə görə, sənədsiz evlərin qeydiyyata alınması ilə bağlı qiymətləndirmələr davam edir.**

V.Bayramov qeyd edib ki, hökumət tərəfindən bu istiqamətdə konsepsiyanın işlənməsi ilə bağlı da intensiv şəkildə fəaliyyətlər həyata keçirilir: "İlkin rəsmi məlumatlara görə, konsepsiyanın qəbul edilməsi 100 mindən artıq qeydiyyatsız evin daha qısa zaman ərzində çıxarışla (kupça) təmin olunmasına imkan verəcək. Biz də bu sahədə prosesin sürətlənməsini təklif edirik. Çünki nəticədə bu bir tərəfdən uzun müddət müzakirə edilən qeydiyyatsız evlərin sənədləşdirilməsini, digər tərəfdən, həmin evlərin mülkiyyət hüquqlarının tanınmasına şərait yarada bilər".

Qeyd edək ki, Azərbaycanda minlərlə insan illərdir yaşadıqları evlərə və torpaqlara dair çıxarış (kupça) ala bilmədiyi üçün hüquqi qeyri-müəyyənlik içində yaşayır. Xüsusilə sovet dövründə vətəndaşlara ayrılmış torpaq sahələrinin sonrakı taleyi, qanuni statusu illərlə həll olunmamış qalırdı.



İndi isə ilkin mərhələdə 100 min ailəyə sevinc yaşadılması real görünürmü?

**Liberal iqtisadçılar Birliyinin sədri Akif Nəsirli mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "İlkin mərhələdə 100 min ailənin sənədsiz evlərlə bağlı probleminin həll olunması nəzəri baxımdan real görünür. Çünki Azərbaycanda uzun illər ərzində formalaşmış bu problem əsasən eyni xarakterli hallardan ibarətdir - sovet dövründə ayrılmış torpaqlar, vaxtilə icra hakimiyyətlərinin verdiyi qeyri-rəsmi razılıqlar, eləcə də sənədləşmə prosesində yaranmış boşluqlar. Dövlət siyasi qərar verdiyi halda müəyyən kateqoriyalara aid evlərin sürətlə leqallaşdırılması mümkündür.

Hazırda ölkədə 600 mindən çox sənədsiz tikili var. Amma reallıqda prosesin tam sürətli getməsi bir sıra çətinliklərlə üzləşə bilər. Əsas problem ondan ibarətdir ki, bütün sənədsiz evlər eyni statusda deyil. Bəzi evlər kənd təsərrüfatı təyinatlı torpaqlarda, bəziləri kommunikasiya xətlərinin, neft-qaz borularının, yüksək gərginlikli elektrik xətlərinin və ya dövlət ehtiyacları üçün nəzərdə tutulan ərazilərin üzərində tikilib. Bu tip evlərin hamısına çıxarış verilməsi hüquqi və texniki baxımdan mümkün olmaya bilər".

**İqtisadçı əlavə edib ki, digər məsələ arxiv və torpaq məlumatlarının natamam olmasıdır:** "Bir çox hallarda torpağın əvvəlki sahibi, təyinatı və sərhədləri ilə bağlı məlumatları tam olmur. Bu isə sənədləşmə prosesini ləngidə bilər. Eyni zamanda korrupsiya və bürokratik maneələr də risk olaraq qalır. Əgər proses tam rəqəmsallaşdırılmasa və şəffaf aparılmasa, yenə də vətəndaşların əlavə problemlərlə üzləşməsi mümkündür.

Eyni zamanda qanunsuz tikililərin leqallaşması yeni sənədsiz tikililərin yaranmasını stimullaşdıra bilər. Ona görə də bu istiqamətdə nəzarət gücləndirilməli və sənədli tikililərin yaranmasını asanlaşdırılmalıdır".

**Akif Nəsirli dünya təcrübəsinə istinad edərək analoji problemlər yaşanan ölkələrin adını açıqlayıb:** "Türkiyə, Gürcüstan, Braziliya və bəzi Şərqi Avropa ölkələri müəyyən mərhələlərdə sənədsiz yaşayış massivlərinin leqallaşdırılması proqramları həyata keçiriblər. Əksər hallarda dövlətlər tam sökütü yolunu deyil, sosial və iqtisadi reallığı nəzərə alaraq mərhələli leqallaşdırma modelini seçiblər. Çünki milyonlarla insanın illərlə yaşadığı evlərin hüquqi status almaması həm sosial narazılıq yaradır, həm də iqtisadi dövriyyəyə mane olur.

Əgər Azərbaycanda da proses düzgün hüquqi mexanizmlərlə və aydın meyarlarla aparılsa, bu addım həm vətəndaşların mülkiyyət hüququnun tanınmasına, həm daşınmaz əmlak bazarının genişlənməsinə, həm də bank kreditləşməsinin artmasına müsbət təsir göstərə bilər. Ancaq bütün sənədsiz evlərin qısa müddətdə tam sənədləşdirilməsi də real görünmür".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 20 (8869) 27 may 2026

May

## Bunları bilirsizmi?

* Dinamitin hazırlanmasında yer fındığından istifadə olunur.
* Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.
* Qarışqa digər canlılarla müqayisədə ən böyük beyinə malikdir.
* Dalbadal içilən 100 fincan qəhvə insanı öldürür.
* Bazar ertəsi günləri 25% bel travması və 33% ürək tutması halları daha çox baş verir.
* Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır.
* İnsan həyatının iki həftəsini işıqforun rəngini dəyişməsini gözləməyə sərf edir.
* İnsan çay içməyə daha tez vərdiş edir, nəinki narkotikə.



## Uşaqları əzizləyərək danışdırmaq haqqında mifə son qoyuldu

**Körpələrlə "şirin-şirin" və ya əzizləyərək danışmaq onların nitq inkişafını ləngitmir, əksinə, struktur qavrayışını daha da yaxşılaşdırır. Bundan əlavə, belə bir ünsiyyət metodu valideynlə uşaq arasındakı emosional bağı möhkəmləndirməyə kömək edir.**

Bu barədə Kolorado Boulder Universitetinin dilçilik üzrə baş elmi işçisi Karen Ştoltsnou "The Conversation" nəşrinə müsahibəsində bildirib.

Mütəxəssisin sözlərinə görə, bəzən valideynlərə uşaqlarla ünsiyyətdə kiçiltmə-əzizləmə formalarından qaçmaq tövsiyə olunur. Çünki sadələşdirilmiş ünsiyyət tərzinin uşaqları çaşdıracağı və ya nitqin inkişafını ləngidəcəyi düşünülür. Lakin reallıqda bu cür danışıq forması uşaqların dili daha yaxşı mənimsəməsinə dəstək olur.

"Məsələn, "Bax gör necə qəşəng itdir!" kimi şişirdilmiş cümlələr körpələri çaşdırmır. Əksinə, bu cür ifadələr onların diqqətini çəkir, nitqdəki qanunauyğunluqları kəşf etməyə və sosial əlaqələri gücləndirməyə kömək edir", - deyə alim izah edib.

K.Ştoltsnou həmçinin qeyd edib ki, valideynlər övladları ilə danışarkən əslində həqiqi sözlərdən və qrammatik cəhətdən düzgün cümlələrdən istifadə edirlər. Sadəcə bunu yüksək səs tonu, uzadılmış saitlər və yavaşladılmış ritmlə - bir növ "musiqili səs tonu" ilə edirlər. Bu isə uşağın diqqətini dilin məzmununa və quruluşuna effektiv şəkildə cəlb etməyə imkan yaradır, sözlər arasındakı sərhədləri daha aydın hiss etməyə və qrammatik qaydaları tanımağa kömək göstərir. Tələffüzdəki səhvlər və bəzi qüsurlar isə uşaqlar böyüdükcə təbii şəkildə aradan qalxır.

"Bütün mədəniyyətlərdə böyüklər instinktiv olaraq körpələrlə "uşaq dili"ndə danışırlar. Hətta heç vaxt əzizləyici tonda danışmayacağına söz verənlər belə uşaqları görəndə çox vaxt dözə bilmirlər. Tədqiqatçılar müəyyən ediblər ki, körpələr məhz valideynlərin bu cür xüsusi danışığına daha çox diqqət yetirirlər", - deyə mütəxəssis dəqiqləşdirib.

Maraqlıdır ki, bu cür ünsiyyət tərzi təkcə insanlara xoş gəlmir. Araşdırmalar göstərib ki, hətta pişiklər də onlarla "şirin" tonda danışıldıqda daha müsbət reaksiya verirlər.

# Pişik və itlərin dili "tərcümə olunacaq"




**Ev heyvanlarının davranış və səslərini insan dilinə çevirən yeni süni intellekt qurğusu təqdim edilib.**

Musavat.com xəbər verir ki, Çinin Hançjou şəhərində fəaliyyət göstərən "Meng Xiaoyi" startapı hazırladığı cihazla artıq böyük maraq doğurub.

Məlumata görə, qurğu 10 mindən çox şəxs tərəfindən əvvəlcədən sifariş edilib və bir modelin qiyməti 118 dollar təşkil edir.

Bildirilir ki, cihaz Alibaba Cloud şirkətinin "Qwen" dil modeli əsasında işləyir. Sistem heyvanların səs izlərini və davranış xüsusiyyətlərini analiz edərək onları insan nitqinə uyğunlaşdırmağa çalışır. Qurğu birbaşa heyvanın boynuna taxılır.

# "Harri Potter"in ilk nəşri 23 min dollara satıldı

**"Harri Potter və fəlsəfə daşı" kitabının ilk nəşri İngiltərədə keçirilən hərracda 17 min funt sterlinqə (təxminən 23 min dollar) satılıb. Bu barədə "The Mirror" qəzeti məlumat yayıb.**

1997-ci ildə cəmi 4.99 funt sterlinqə satışa çıxarılan bu nüsxə Edinburqdan olan kitab resenziyaçısı Katrina Maknikola məxsus olub. O, kitabı vaxtilə ikinci əl kitab mağazasından əldə etsə də, oxumağa vaxt tapmayıb və tam yeni vəziyyətdə qutuda saxlayıb. Kitab təxminən 30 il çardaqda qaldıqdan sonra sahibi köhnə əşyalarını satmaq qərarına gəlib.

İngiltərənin Liçfild şəhərində nadir kitabların hərracını təşkil edən "Hansons" hərrac evi bu nüsxəni "son dərəcə nadir tapıntı" adlandırıb. Kitab ilk dəfə çap olunanda nəşriyyat böyük tələbat gözləmədiyi üçün onu cəmi 500 sərt üzlü və 5 mindən bir qədər çox yumşaq üzlü nüsxədə buraxmışdı. Məhz bu səbəbdən ilk nəşrlər hazırda kolleksiyaçılar arasında dünyada ən çox axtarılan müasir rəflərdən birinə çevrilib.

Xatırladaq ki, 2017-ci ildə Coan K. Roulinq tərəfindən şəxsən imzalanmış ilk nəşr "Bonhams" hərracında rekord qiymətə - 106 min funt sterlinqə (təxminən 140 min dollar) satılmışdı.

Britaniyalı yazıçının yeddi kitabdan ibarət məşhur seriyası 1997-2007-ci illərdə işıq üzü görüb. 80-dən çox dilə tərcümə edilən kitabların ümumi tirajı 500 milyon nüsxəni ötüb. Bu əsərlər əsasında ondan çox uğurlu film çəkilib.

## Qarında şişkinliyi azaltmağın sadə yolları açıqlandı



**Qastroenteroloqlar qarında şişkinliyi azaltmaq üçün sadə üsulları açıqlayıblar.**

Milli.Az xəbər verir ki, əsas səbəblərdən biri kifayət qədər su içməməkdir. Bu halda qidalar bağırsaqda daha gec həzm olunur və qaz yaranması artır.

Mütəxəssislər rasionda meyvə, tərəvəz, paxlalılar və tam taxıl məhsullarına daha çox yer verməyi tövsiyə ediblər. Həmçinin yeməkdən sonra yüngül gəzinti etməyin həzmi sürətləndirdiyi bildirilib. Həkimlər axşam saatlarında çox yeməməyi, spirtli içkilərdən, yağlı və emal olunmuş qidalardan uzaq durmağı da məsləhət görüblər. Onların fikrincə, keyfiyyətli yuxu və stressin azalması da qarında şişkinliyin azalmasına kömək edir.

## Lüks butikdə qarət - 200 min avroluq çantalar aparıldı

**Musavat.com xəbər verir ki, Fransanın paytaxtı Parisdə yerləşən lüks butiklərdən birinə silsilə oğurluq hücumu olub.**

Məlumata görə, naməlum şəxslər avtomobillə mağazanın vitrininə çırpılıb, daha sonra içəri daxil olaraq çox bahalı qadın çantalarını götürərək hadisə yerindən qaçıblar.

İlkin hesablamalara əsasən, oğurlanan məhsulların ümumi dəyəri təxminən 200 min avro təşkil edir. Hazırda polis avtomobili və hücumu həyata keçirən şəxsləri axtarır.

## Çinli alimlərdən xərçəngi aşkarlayan cihaz



**Çinli alimlər ənənəvi metodlardan qat-qat yüksək dəqiqliklə, cəmi bir damla qanda xərçəng biomarkerlərini təyin edə bilən portativ cihaz ixtira ediblər. Bu elmi işin nəticələri nüfuzlu "Nature Photonics" jurnalında dərc olunub. Qan nümunələrində xərçəng biomarkerlərini axtarmaq üçün istifadə olunan müasir sistemlər adətən irihəcmli laboratoriya avadanlıqları - böyük məişət soyuducusu ölçüsündə mürəkkəb optik sistemlər, prizmalar və spektrometrlər tələb edir. Çinli alimlər isə bu cür mürəkkəb sistemi ovuc içinə sığacaq qədər yığcam bir cihaza qədər kiçiltməyə nail olublar.**

Yeni texnologiyanın əsasını işığın dalğa uzunluğunu deyil, qan nümunəsindən keçərkən işıq intensivliyinin dəyişməsini analiz edən nanofotonik sensor metodu təşkil edir. Bunun üçün mütəxəssislər işığı qeyri-adi şəkildə idarə etməyə imkan verən süni strukturlardan - metamateriallardan ibarət xüsusi üçölçülü çip hazırlayıblar. İxtiraçılar eyni zamanda bu tip texnologiyaların ən başlıca problemlərindən birini - istehsalatın yüksək maliyyə xərclərini də həll ediblər. Hər bir çipin tək-tək və yavaş sürətlə hazırlanması əvəzinə, alimlər mikrosxemlərin kütləvi çapı sistemini yaradıblar. Nəticədə bir sensorun qiymətini təxminən beş dollara qədər ucuzlaşdırmaq mümkün olub.

Cihaz cəmi üç əsas hissədən ibarətdir: fotodetektor, işıqdiodlu (LED) işıq mənbəyi və optik sensor. Bu sadəlik sayəsində həmin sistemi təkcə laboratoriya şəraitində deyil, həm də gələcəkdə ev şəraitində istifadə etmək potensialı yaranır.

Texnologiyanın işləkliyini yoxlamaq məqsədilə alimlər cihazı ağciyər xərçənginin inkişafı ilə əlaqəli olan mikroskopik hissəciklərin - kiçik hüceyrəxarici vezikulların aşkarlanması üzərində sınaqdan keçiriblər. Qanda konsentrasiyası son dərəcə aşağı olduğundan, bu biomarkerləri xəstəliyin ilkin mərhələlərində tapmaq xüsusilə çətindir. Xəstələrdən götürülmüş 171 qan nümunəsi üzərində aparılan sınaqlar zamanı cihaz ağciyər xərçənginin erkən aşkarlanmasında 94.9%-ə qədər dəqiqlik nümayiş etdirib. Müqayisə üçün qeyd edək ki, standart immunoferment analizinin (ELİSA) dəqiqliyi təxminən 74.7% təşkil edir.

Müəlliflərin məlumatına görə, bu yeni sistem ənənəvi üsullarla müqayisədə təqribən 10 min dəfə daha həssasdır. Tədqiqatçılar hesab edirlər ki, yaradılmış texnologiya yalnız xərçəng xəstəliyinin diaqnostikasında deyil, həm də minimal qan həcmində biomarkerlərin sürətli təyini tələb olunan digər tibbi müayinə növlərində də geniş tətbiq oluna bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.